QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 052 (5772) **19 mart** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# "Novruz bayramı əcdadımızın indiki nəsillərə misilsiz yadigarıdır"

*Prezident İlham Əliyev Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edib*



Səh 2


"Azərbaycanın iqtisadi inkişafı istiqamətində gedən işlər Səudiyyə Ərəbistanında böyük maraqla izlənilir"



2

KİVDF-nin 10 illik yubileyi qeyd edilib



4

Əfv sərəncamının imzalanması xarici qüvvələri, ermənipərəst dairələri ciddi şəkildə narahat edir



5

Avropa İttifaqı Azərbaycan Prezidentinin əfv Sərəncamını alqışlayır



5

Rəşid Alimov: VII Qlobal Bakı Forumunun iştirakçıları və məzmunu mənə güclü təsir bağışladı



4

Viktor Yuşşenko: Azərbaycan qlobal forumu təşkil etməyi bacaran regional liderdir



6

14

Əfv Sərəncamı Əli Kərimlini nədən qorxuya saldı?



6

Ermənistan hökumətinin "Qazprom"la danışıqları uğursuz başa çatıb



16

Lionel Messi yeni rekorda imza atıb



# "Novruz bayramı əcdadımızın indiki nəsillərə misilsiz yadigarıdır"

## *Prezident İlham Əliyev Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edib*

***Prezident İlham Əliyev Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edib. Təbrikdə deyilir: "Hörmətli həmvətənlər! Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, bu əziz bayram günlərində hamınıza bahar əhval-ruhiyyəsi, cansağlığı və səadət arzulayıram.***



Qədim dövrlərdən bəri mənəvi həyatımızın ən dərin qatlarına nüfuz etmiş və milli-mədəni dəyərlərimizin təşəkkülündə müstəsna yer tutmuş Novruz bayramı əcdadımızın indiki nəsillərə misilsiz yadigarıdır. Təbiətlə insanın vəhdətinə dair təsəvvürləri yaşadan rəngarəng Novruz mərasimlərində xalqımızın dolğun həyat fəlsəfəsi və zəngin düşüncə dünyası parlaq təcəssümünü tapmışdır.

Azərbaycan torpağında Novruz bayramı daim yad təsirlərdən uzaq tutulmuş və heç bir qüvvəyə onu insanlarımızın qəlbindən çıxarmaq imkanı verilməmişdir. Biz onun böyük mənəvi gücü sayəsində keçmişimizin mürəkkəb dövrlərində belə nikbinliyimizi və gələcəyə inamımızı qoruyub saxlamağı bacarmışıq. Yaz bayramının bu gün əsl ümumxalq bayramı mahiyyəti qazanması dövlət müstəqilliyimizin nailiyyətlərindəndir.

Baharın yurdumuza hər gəlişi əsrlərin yaddaşında iz qoymuş mərasimlərimizə uyğun, yüksək təntənə ilə qeyd olunur. Qloballaşma dalğasının geniş vüsət aldığı və ənənəvi dəyərlərin sürəkli dəyişikliklərə məruz qaldığı bir zamanda Novruz bayramı tarixi-mədəni irsə bağlılığımızın ifadəsinə çevrilmişdir. Özündə insanlığa xas ali dəyərləri cəmləşdirmiş bu bayramın UNESCO tərəfindən ümumbəşəri irsin şah əsərləri sırasına daxil edilməsi hər birimiz üçün iftixar mənbəyidir.

Dayanıqlı inkişaf yolunda ciddi uğurlara nail olmuş Azərbaycanın islahatların növbəti mərhələsinə qədəm qoyması yaz fəslinin yeniləşdirici ovqatı ilə həmahəng səsləşərək qurub-yaratmaq əzmimizi artırır. Həyatımızın ayrı-ayrı sahələrindəki davamlı müasirləşmə meyilləri ilə vahid axarda gerçəkləşdirilən müxtəlif layihələr ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına yönəlmişdir. Qoy bu bayram hər evə xoş ovqat gətirsin və hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!"

# "Azərbaycanın iqtisadi inkişafı istiqamətində gedən işlər Səudiyyə Ərəbistanında böyük maraqla izlənilir"



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Səudiyyə Ərəbistanı Krallığının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Əl Falihi qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Bakıda "OPEC plus" ölkələrinin iclasında iştirak etdiyinə görə Xalid Əbdüləziz Əl Falihə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanın neftin sənaye üsulu ilə istehsalının vətəni olduğunu vurğulayaraq, bu tədbirin Bakıda keçirilməsinin xüsusi məna daşıdığını qeyd etdi. Dövlətimizin başçısı "OPEC plus" formatında əməkdaşlığın dünyada neftin qiymətinin balanslaşdırılmasında mühüm rol oynadığını vurğuladı.

Nazir Xalid Əbdüləziz Əl Falih, ilk növbədə, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırdı. O, Azərbaycanın "OPEC plus" formatında fəal iştirak etdiyini bildirərək ölkəmizdə tədbir iştirakçılarına göstərilən qonaqpərvərliyi yüksək qiymətləndirdi. Xalid Əbdüləziz Əl Falih Prezident İlham Əliyevin "OPEC plus" formatının yaradılmasında liderlik rolunu yüksək dəyərləndirərək bu formatda Azərbaycanın çox fəal iştirakçı olduğunu qeyd etdi. İkitərəfli münasibətlərə toxunan Xalid Əbdüləziz Əl Falih ölkəsinin Azərbaycanın ərazi bütövlüyünün və təcavüz nəticəsində pozulmuş suverenliyinin bərpası işinə tam sadiq olduğunu vurğuladı. O qeyd etdi ki, Azərbaycanın möhkəmlənməsi, iqtisadi inkişafı və iqtisadiyyatının şaxələndirilməsi istiqamətində gedən işlər Səudiyyə Ərəbistanında böyük maraqla izlənilir. Xalid Əbdüləziz Əl Falih bu həftə Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn nümayəndə heyətlərinin Azərbaycan hökumətinin və biznes qurumlarının nümayəndələri ilə məhsuldar görüşlər keçirdiyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səudun salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Səudiyyə Ərəbistanının Kralına çatdırmağı xahiş etdi.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu deyən Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın ədalətli mövqeyinə Səudiyyə Ərəbistanı Krallığının göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi və bunu dostluq münasibətlərinin təzahürü kimi dəyərləndirdi. İki ölkə arasında siyasi sahədə əlaqələrin inkişafından məmnunluğunu ifadə edən Prezident İlham Əliyev Azərbaycanda və Səudiyyə Ərəbistanında hazırda iqtisadiyyatın şaxələndirilməsi üzrə böyük işlərin həyata keçirildiyini qeyd etdi və bunun iqtisadi əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanlar yaratdığını dedi. Dövlətimizin başçısı Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayının artdığını qeyd edərək, bunun ölkələrimizin və xalqlarımızın bir-birinə daha da yaxınlaşması işinə xidmət etdiyini vurğuladı. Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd etdi ki, Səudiyyə Ərəbistanı Krallığından Azərbaycana gələn insanlar xalqımızın qonaqpərvərliyinin və dostluq münasibətinin şahidi olurlar.

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyi bildirildi, Səudiyyə Ərəbistanı Krallığının "Saudi Aramco" şirkətinin Bakıda ofisinin açılması yüksək qiymətləndirildi, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# "Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli münasibətlər yüksək səviyyədə inkişaf edir"



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 18-də Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye naziri Süheyl Məhəmməd əl-Məzruini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycana səfərindən məmnun olduğunu bildirən Süheyl Məhəmməd əl-Məzrui Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın, Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktumun və Əbu-Dabinin vəliəhdi Şeyx Məhəmməd Bin Zayed Əl Nəhyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək, əməkdaşlığın yeni sahələri, o cümlədən turizm sahəsini əhatə etməsindən məmnunluğunu bildirdi. Birləşmiş Ərəb Əmirliklərindən Azərbaycana gələn turistlərin sayının artdığını bildirən Prezident İlham Əliyev bunu dostluq əlaqələrimizin təzahürü kimi dəyərləndirdi və qonaqların xalqımızın qonaqpərvərliyinin şahidi olduğunu vurğuladı.

Azərbaycanla münasibətlərin ölkəsinin xarici siyasətinin gündəliyində duran ən önəmli istiqamətlərdən biri olduğunu deyən Birləşmiş Ərəb Əmirliklərinin enerji və sənaye naziri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda geniş investisiya imkanları yaradılmasının ölkəsində yüksək qiymətləndirildiyini bildirdi.

Söhbət zamanı "OPEC plus" formatında Bakıda keçirilən tədbirlərin əhəmiyyətinə toxunuldu, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında enerji, neft-qaz, neft-kimya, bərpa olunan enerji, müxtəlif iqtisadi layihələr sahəsində əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktumun və Əbu-Dabinin vəliəhdi Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanın salamlarına görə minnətdarlığını bildirən dövlətimizin başçısı onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə, vitse-prezidenti, Baş naziri və Dubay Əmirinə və Əbu-Dabinin vəliəhdinə çatdırmağı xahiş etdi.

## Rəsmi xronika

Prezident İlham Əliyev Salyan Rayon Mərkəzi Xəstəxanasının Doğum Evinin və Uşaq Xəstəxanasının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Maştağa qəsəbəsində 7 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının ərazisində yeni korpusun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə Çernobıl AES-də qəza nəticələrinin aradan qaldırması ilə əlaqədar əlilliyi olan şəxslərin, İkinci Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında Sərəncamı imzalayıb.

# Azərbaycan və Gürcüstan əlaqələri möhkəm təməllər üzərində qurulub

*İlham Əliyev: "Bizim birgə həyata keçirdiyimiz layihələr həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmlidir"*



Müstəqil dövlət kimi, Azərbaycanın dünya dövlətləri, təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. İqtisadi, siyasi, sosial və s. qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib. Azərbaycan ilə Gürcüstan arasında əlaqələr də möhkəm təməllər üzərində qurulub. İki ölkə arasında bu günə qədər imzalanmış sənədlər əməkdaşlıq üçün yeni imkanlar açıb. Azərbaycanla Gürcüstan arasında yaxınlığın və əlaqələrin inkişafına böyük təkan verən ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir. Bu münasibətlər həm siyasi, həm iqtisadi, həm də sosial-humanitar sahələri əhatə edir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib. Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindəndir. Gürcüstan prezidenti xanım Salome Zurabişvilinin Azərbaycan səfəri də bu münasibətlərin möhkəmliyini bir daha təsdiq etmiş oldu. Onun regionda birinci səfərinin Azərbaycan olması qonşu və dost ölkə olduğuna əsaslanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görüş zamanı bildirdiyi kimi, biz əsrlər boyu mehriban qonşuluq şəraitində yaşamışıq və bu gün uğurla inkişaf edirik: "Bizim birgə həyata keçirdiyimiz layihələr həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmlidir. Yəni biz çox uğurlu əməkdaşlıq formatı yarada bildik. Əminəm ki, növbəti illərdə bütün sahələr üzrə əməkdaşlıq daha da dərinləşəcək və genişlənəcək. Bunu bizim siyasi iradəmiz diktə edir. Əminəm ki, biz bütün məsələlərdə hər zaman bir-birimizin yanında olacağıq, bir-birimizə dəstək göstərəcəyik, necə ki, bu günə qədər bütün məsələlərdə həmişə bir yerdə olmuşuq".



Görüş çərçivəsində regional problemlər, ikitərəfli və çoxtərəfli əməkdaşlıqla bağlı məsələlər müzakirə olunub. Dövlət başçısı bu səfərin Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafı üçün önəmli addım olacağını diqqətə çatdıraraq, bildirib ki, biz bu gün artıq həm xarici siyasət məsələlərini, həm də regiondakı vəziyyəti, bizim nəqliyyat, enerji layihələrinin icrasını müzakirə etdik: "Əminəm ki, bu səfərin nəticələri çox müsbət olacaq və bizim əməkdaşlığımıza yeni töhfə verəcək".

### "...ƏGƏR LAYİHƏLƏRİN ƏVVƏLİNDƏ ÜÇ ÖLKƏ ƏMƏKDAŞLIQ EDİRDİSƏ, BU GÜN BU ÖLKƏLƏRİN SAYI BÖYÜK DƏRƏCƏDƏ GENİŞLƏNİR VƏ YENİ TƏRƏFDAŞLAR BU LAYİHƏLƏRƏ CƏLB EDİLİR"

Gürcüstanla Azərbaycanı, hər şeydən əvvəl, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. Regionda yeni mühüm bir layihəni ərsəyə gətirmək üçün iki dövlətin mövqeləri üst-üstə düşür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan prezidenti xanım Salome Zurabişvilinin mətbuata bəyanatlarla çıxışlarında da ölkələrimiz arasında mövcud münasibət bir daha özünün göstərmiş oldu. Azərbaycan Prezidenti İlham Əliyev bəyanatla çıxışında Gürcüstan və Azərbaycanın bütün sahələrdə çox uğurla əməkdaşlıq etdiyini və bu əməkdaşlığın böyük hissəsinin energetika sektoruna aid olduğunu bildirib: "Bu gün bu məsələlər də geniş müzakirə olundu. Bildirməliyəm ki, bu əməkdaşlığın böyük tarixi var və biz birgə səylərlə çox önəmli böyük layihələri icra edə bilmişik. Əgər tarixə nəzər salsaq, görərik ki, hələ 1990-cı illərin sonlarında Bakı-Supsa neft kəmərinin tikintisi böyük hadisə idi. Bu, imkan verdi ki, Xəzər dənizi Qara dənizlə neft kəməri ilə birləşsin. Ondan sonra, əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri tikildi. Bütün bunları, biz, yəni üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə birgə səylərlə həyata keçirdik". Həyata keçirilən bu layihələr iqtisadi inkişafa böyük təsirini göstərməkdədir. "Bu marşrut üzrə bu gün "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir", - deyən Azərbaycan Prezidenti "Cənub Qaz Dəhlizi"nin reallaşmasına az vaxt qaldığını söyləyib: "Keçən il bu layihənin icrası ilə bağlı çox önəmli il olmuşdur. Keçən il Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi olmuşdur və onun əsas hissəsini təşkil edən TANAP layihəsi də istifadəyə verilmişdir. Artıq TANAP xətti ilə qazın nəqli təmin edilir. Bu layihələr ölkələrimiz üçün, bölgə üçün böyük əhəmiyyət daşıyır, geniş mənada, əməkdaşlığı dərinləşdirir. Əgər layihələrin əvvəlində üç ölkə əməkdaşlıq edirdisə, bu gün bu ölkələrin sayı böyük dərəcədə genişlənir və yeni tərəfdaşlar bu layihələrə cəlb edilir".

### "...BİZİM BÜTÜN SAHƏLƏR ÜZRƏ ƏMƏKDAŞLIĞIMIZIN ÇOX BÖYÜK PERSPEKTİVLƏRİ, ƏN ƏSASI İSƏ GÜCLÜ SİYASİ İRADƏ VAR"

"Azərbaycanda yaşayan gürcülər və Gürcüstanda yaşayan azərbaycanlılar əlaqələrimizin inkişafı üçün çox önəmli rol oynayırlar" - deyən Cənab Prezident Gürcüstan və Azərbaycanın çoxmillətli, çoxkonfessiyalı ölkələr olduğunu vurğulayıb: "Bu, bizim böyük sərvətimizdir. Ölkələrimizdə yaşayan bütün xalqların nümayəndələri özlərini çox rahat hiss edirlər. Bu, ölkələrimizin bugünkü və gələcək inkişafı üçün çox önəmli amildir".

Görüş çərçivəsində aparılan danışıqlar Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığına, iqtisadi, siyasi, humanitar və digər sahələrdə əlaqələrin daha da genişləndirilməsinə öz töhfəsini verəcəkdir. Bütün sahələrdə uğurlu əlaqələr böyük layihələrin reallaşmasına səbəb olacaq və iki dövlət arasında olan dostluğun təməlini daha da möhkəmləndirəcəkdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bir sözlə, deyə bilərəm ki, bizim bütün sahələr üzrə əməkdaşlığımızın çox böyük perspektivləri, ən əsası isə, güclü siyasi iradə var. Gürcüstan və Azərbaycan bundan sonra da bir-birini dəstəkləyəcək. Biz reallaşan layihələri bundan sonra da inkişaf etdirəcəyik və yeni layihələr haqqında düşünəcəyik".

**Nəzakət ƏLƏDDİNQIZI**

# KİVDF-nin 10 illik yubileyi qeyd edilib

## *Əli Həsənov: “Azərbaycan dövlətinin KİV-lərə, jurnalistlərə dəstəyi şəffaf şəkildə həyata keçirilir”*

***Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) yaranmasının 10-cu ildönümü və Novruz bayramı münasibətilə elan olunmuş ənənəvi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.***





Trend-in məlumatına görə, tədbirdə Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, KİVDF-nin icraçı direktoru Vüqar Səfərli, dövlət rəsmiləri, millət vəkilləri, KİV rəhbərləri və digər qonaqlar iştirak ediblər.

Azərbaycan Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirin əvvəlində fondun 10 illiyinə həsr olunan film nümayiş etdirilib.

Tədbirdə çıxış edən Ə.Həsənov bildirib ki, KİVDF Azərbaycanda kütləvi informasiya vasitələrinin və jurnalistikanın inkişafında önəmli rol oynayıb:






“Fond Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş azad media siyasətinin həyata keçirilməsində önəmli xidmətlər göstərib. Bu fondun yaradılması təşəbbüsünü Prezident İlham Əliyev irəli sürüb. 10 il bundan qabaq fondun yaradılması ilə bağlı Prezidentin sərəncamı imzalandı. Ondan bir il qabaq Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası qəbul olundu. Həm konsepsiyanın qəbul edilməsi, həm də fondun yaradılması Azərbaycanda dövlətin mediaya qayğısını, dəstəyini sistemləşdirən və vahid konsepsiya ilə həyata keçirən bir mexanizmin yaradılmasını ehtiva edirdi”.

PA rəsmisi bildirib ki, 10 ildir Azərbaycan dövlətinin KİV-lərə, jurnalistlərə, onların şəxsi və xidməti ehtiyaclarına, o cümlədən KİV-lərin maddi-texniki vəziyyətinin yaxşılaşdırılmasına, jurnalistlərin sosial problemlərinin həll edilməsinə göstərdiyi dəstək şəffaf şəkildə həyata keçirilir və bu prosesdə heç bir qaranlıq məqam yoxdur:




“Bu 10 il müddətində kütləvi informasiya vasitələrinə, jurnalistlərə nə edilibsə, kollegial şəkildə edilib, KİVDF-nin Müşahidə Şurasının bilavasitə nəzarəti ilə həyata keçirilib. İstər mənzillərin paylanması, istər fərdi yazı müsabiqələrinin keçirilməsi, müsabiqələrdə qaliblərin elan olunması, istərsə də kütləvi informasiya vasitələrinə tirajına və onların potensialına uyğun illik yardımların paylanması tam şəffaf və ədalətli sistem üzrə həyata keçirilib. Prezident İlham Əliyevə Azərbaycan jurnalistlərinin bugünkü məmnunluq nümayiş etdirən münasibəti də ona gətirib çıxarıb ki, neçə ildir davamlı olaraq jurnalistlər İlham Əliyevi özünün dostu seçir. Mən Azərbaycan mediasına göstərdiyi sistemli və şəffaf dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. Prezident İlham Əliyevin bu siyasətinin həyata keçirilməsində iştirak edən hər kəsə, o cümlədən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya, mərkəzi və yerli icra hakimiyyəti orqanlarına təşəkkür edirəm”.

Daha sonra tədbirdə çıxış edən V.Səfərli bildirib ki, 10 il ərzində Fond tərəfindən bir çox layihələr həyata keçirilib:

“İstər yerli icra hakimiyyətləri, istərsə də mərkəzi icra orqanları və digər qurumlarla birgə bir çox layihələr həyata keçirmişik. 10 ildə çox işlər görülüb, jurnalistlərin peşəkarlığının artırılması, sosial-mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli iş görülüb. Fond ildə 3 dəfə - Novruz bayramında, Milli mətbuatın yaranma günündə və Dünya Azərbaycanlılarının Həmrəyliyi və Yeni il münasibətilə müsabiqə keçirir”.

V.Səfərli Azərbaycan mətbuatına göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə mətbuat adından minnətdarlığını bildirib, eyni zamanda, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanı Novruz bayramı münasibətilə təbrik edib.

Daha sonra mükafatlar təqdim edilib və tədbir bədii hissə ilə davam etdirilib.

# Avropa İttifaqı Azərbaycan Prezidentinin əfv Sərəncamını alqışlayır




Avropa İttifaqı Azərbaycan Prezidenti İlham Əliyevin 431 məhkuma şamil olunan əfv Sərəncamını alqışlayır.

AZƏRTAC xəbər verir ki, bunu Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik məsələləri üzrə sözçüsü Maya Kosyançiç bəyan edib. O, Azərbaycanın dövlət başçısının bu qərarını “tərifəlayiq addım” adlandırıb. M.Kosyançiç əlavə edib ki, Avropa İttifaqı Azərbaycanla bütün sahələrdə əməkdaşlığı davam etdirəcək. Aİ rəsmisi vurğulayıb ki, Avropa İttifaqı Azərbaycandan beynəlxalq öhdəlikləri çərçivəsində gələcəkdə də bu cür addımlar gözləyir.

# Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib



Martın 18-də Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitənin sədri Ziyad Səmədzadə gündəlikdəki məsələlər barədə məlumat verib. Əvvəlcə “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb. Bildirilib ki, qanun layihəsində daşınmaz əmlakın üzərində hüquqların dövlət qeydiyyatına alınması prosesinin təkmilləşdirilməsi, çıxarışların kağız formada təqdim olunması prosedurunun tamamilə aradan qaldırılması, onların yalnız elektron üsulla təqdim olunması ilə bağlı müddəalar əks olunub. Layihəyə əsasən, dövlət reyestrindən çıxarışlar elektron imza ilə təsdiqlənməklə hüquq sahibinin istəyindən asılı olaraq “Elektron hökumət” portalında yerləşdiriləcək və ya digər elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) hüquq sahibinə təqdim olunacaq.

“Dövlət rüsumu haqqında” Qanunda ediləcək dəyişikliyə əsasən sənədə yeni “Könüllü dövlət daktiloskopik və genom qeydiyyatının aparılmasına görə tutulan dövlət rüsumunun dərəcələri” məzmunlu 33-6-cı maddə əlavə edilir. Könüllü dövlət daktiloskopik qeydiyyatının aparılmasına görə 20 manat, könüllü dövlət genom qeydiyyatının aparılmasına görə 250 manat dövlət rüsumu müəyyən edilir.

Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində buğda emalı müəssisələrinin səmərəli fəaliyyətinin təmin olunması məqsədilə kəpək istehsalı və satışının 2019-cu il martın 1-dən 2 il müddətinə əlavə dəyər vergisindən azad edilməsi və hazırda buğdanın idxalı və satışı, buğda ununun, çörəyin istehsalı və satışına tətbiq olunan güzəştin əlavə olaraq daha bir il uzadılması nəzərdə tutulur.

“Hesablama Palatası haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi auditə dair hesabatla əlaqədar kənar dövlət maliyyə nəzarəti obyektinin qeyd, irad və rəyinin bildirilməsinin 20 gündən 10 günədək müddətinə azaldılması, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanlarda həyata keçirilən auditə dair məlumatların təqdim edilməsi qaydasının təkmilləşdirilməsi, habelə Hesablama Palatası üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə hazırlanıb.

“Banklar haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müştərilərin maraqlarının qorunması məqsədilə kredit müqavilələri üzrə faiz dərəcələrinin, komissiya haqlarının və bank xidmətləri üçün digər ödənişlərin optimallaşdırılmasına görə onların yuxarı həddinin tənzimlənməsini nəzərdə tutur.

İclasda, həmçinin “Telekommunikasiya haqqında”, “Sığorta fəaliyyəti haqqında” qanunlarda, İnzibati Xətalar Məcəlləsində, Mülki Prosessual Məcəlləsində və “İpoteka haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinə üçüncü oxunuşda baxılıb. Bundan başqa, İnzibati Xətalar Məcəlləsində, Mülki, Vergi, Mənzil, Gömrük məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda nəzərdən keçirilib. Deputatlar qanun layihələri barədə fikir və təkliflərini səsləndiriblər. Bütün qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

# Əfv sərəncamının imzalanması xarici qüvvələri, ermənipərəst dairələri ciddi şəkildə narahat edir

***Hüquqi və demokratik dövlət olan Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin olunub. Bununla yanaşı, ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində vətəndaş amili dayanır. Yəni dövlət öz vətəndaşlarına xüsusi diqqət və qayğı göstərir, qəbul olunan bütün qərarlarda vətəndaşların mənafeyi əsas götürülür.***



Eyni zamanda, Azərbaycan dövləti öz vətəndaşlarına qarşı humanist mövqe nümayiş etdirir, onların cəmiyyət daxilində təhlükəsiz, əmin-amanlıq şəraitində yaşaması, öz imkan və qabiliyyətlərindən səmərəli istifadə etmələrini diqqət mərkəzində saxlayır. Bu baxımdan azadlıqdan məhrumetmə və azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin əfv edilməsi ilə bağlı dövlət başçısı tərəfindən əfv haqqında sərəncamların imzalanması, eləcə də amnistiya aktlarının qəbul olunması xüsusi əhəmiyyətə malikdir. Bu, dövlətin humanizm siyasətini və öz vətəndaşlarına münasibətini əks etdirən mühüm göstəricilərdən biridir. Azərbaycanda məhkumların əfv olunması həm ölkə Prezidentinin imzaladığı fərman və sərəncamlar, həm də Milli Məclisin qəbul etdiyi amnistiya aktları əsasında həyata keçirilir.

Humanizm Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu siyasətin və müsbət ənənənin təməli isə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər Heydər Əliyev hər zaman humanizm - insanpərvərlik dəyərlərinə böyük önəm verib və bunu öz fəaliyyətində daim nümayiş etdirib. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra ölüm hökmünə moratorium qoydu. O dövrdən etibarən Azərbaycanda heç kimə ölüm hökmü tətbiq olunmadı və sonradan bu cəza növü ləğv edildi. Bununla yanaşı, Ümummilli liderin ölkəmizə rəhbərliyi dövründə əfv sərəncamları imzalanıb, amnistiya aktları qəbul edilib. Ümumiyyətlə, Azərbaycanın müstəqilliyini bərpa etdiyi 18 oktyabr 1991-ci ildən Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi dövrə qədər ölkəmizdə amnistiya və ya əfv haqqında hər hansı bir qərar və sərəncam olmayıb. Əksinə, Prezident İlham Əliyevin 16 mart tarixli "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamına kölgə salmağa çalışan, o vaxt AXC-Müsavat cütlüyünün tərkibində yüksək dövlət vəzifəsi tutmuş Əli Kərimli, eləcə də "Milli şura"da yer alan digər şəxslər 1 illik hakimiyyət dövrləri müddətində onlarla insanı ölüm hökmünə məhkum etmişdilər və həmin hökmlər icra olunmuşdu. Məhz Ümummilli liderin hakimiyyətə qayıdışından sonra 1996-cı ildən başlayaraq əfv sərəncamları imzalanıb, amnistiya haqqında qərarlar qəbul olunub. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Öz siyasətində daim yüksək humanizm prinsiplərini rəhbər tutan Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamları və fərmanlarının icrası nəticəsində minlərlə məhkum öz azadlığına qovuşub və ya cəzaları qanunvericiliyə uyğun olaraq azaldılıb.

Bu günə qədər ölkəmizdə 11 dəfə amnistiya aktı qəbul edilib, dövlət başçısı tərəfindən 70-ə yaxın əfv fərmanı və sərəncamı imzalanıb. Nəticədə 10 minlərlə insan azadlığına qovuşub. Sonuncu Amnistiya Aktı isə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilib. Bu Amnistiya Aktı 10 mindən artıq insana şamil olunub. Bu, Heydər Əliyev siyasətinin humanist mahiyyətini əks etdirən bariz nümunələrdən biridir. Yəni ölüm hökmünün aradan qaldırılması, əfv sərəncamlarının, amnistiya aktlarının qəbul olunması ilə məhkumların yenidən azadlığa qovuşub cəmiyyət üçün yararlı şəxsiyyətə çevrilməsi imkanının verilməsi məhz Heydər Əliyev siyasətinin aparıcı istiqamətlərindən biridir. Əfv olunan vətəndaşlar dövlətin onlara olan inam və etibarını daim hiss edirlər, bu isə onları layiqli vətəndaş olmağa həvəsləndirir. Yəni Azərbaycan ictimaiyyətinin nümayəndələri humanizm nümunəsi olan bu addımları yüksək dəyərləndirirlər.

Şübhəsiz ki, ölkəmizdə mütəmadi olaraq əfv sərəncamlarının imzalanması, amnistiya aktlarının qəbul olunması dövlətin öz vətəndaşlarına verdiyi dəyərin bariz nümunəsidir. Qeyd etdiyimiz kimi, indiyə qədər ölkəmizdə 70-ə yaxın əfv sərəncamı imzalanıb. Martın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanan "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncam da bu qəbildən olan nümunələrdəndir. Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 399 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş üç nəfərdən birinin cəzası 25, iki nəfərinki isə 20 il müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəzlənib. Azadlıqdan məhrum etmə cəzasına məhkum olunan və cəzasının çəkilməsi təxirə salınmış bir nəfər cəzadan azad edilib. Həmçinin azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş 11 nəfər cəzadan azad olunub. Eləcə də azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş bir nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Üç nəfər islah işləri cəzasından, bir nəfər ictimai işlər cəzasından, 12 nəfər isə cərimə cəzasından azad edilib.

Bəhs olunan əfv sərəncamının imzalanması hüquq müdafiəçiləri, ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatlar, həmçinin ölkəmizdə milli maraqlara uyğun fəaliyyət göstərən siyasi partiyalar, QHT-lər, KİV-lər və digər ictimai təşkilatlar, bütövlükdə Azərbaycan ictimaiyyəti tərəfindən olduqca yüksək qiymətləndirilir. Əfsuslar olsun ki, yüksək humanizmi, dövlətin öz vətəndaşlarına diqqət və qayğısını əks etdirən əfv sərəncamının əhəmiyyətini azaltmağa, mahiyyətini təhrif etməyə çalışan qüvvələr də var. Ümumiyyətlə, Azərbaycanda həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar, ölkəmizin beynəlxalq mövqeyinin daha da möhkəmlənməsi, eləcə də dövlətin öz vətəndaşlarına humanist münasibətini əks etdirən əfv sərəncamının imzalanması ilk növbədə ölkəmizin hüdudlarından kənarda olan qüvvələri - ermənipərəst dairələri ciddi şəkildə narahat edir. Həm xaricdəki "sapı özümüzdən olan baltalar", həm də ölkəmizdəki "beşinci kolon" nümayəndələri sözügedən əfv sərəncamının guya hansısa xarici qüvvələrin təzyiqi nəticəsində imzalandığını iddia etməklə ictimai rəyi çaşdırmağa çalışırlar. Halbuki elə bu fikri deyənlərin özləri, yaxınları-qohumları cənab Prezident İlham Əliyevə, hüquq müdafiəçilərinə, müraciət edərək törətdikləri əməldən peşman olduqlarını, azadlığa çıxmaq istədiklərini dəfələrlə bildirmişdilər.

Maraqlı bir məqam ondan ibarətdir ki, vaxtilə öz çıxışlarında ABŞ-ı, ümumilikdə Qərb ölkələrini erməni lobbisi ilə iş birliyi quraraq Azərbaycan müxalifətini maliyyələşdirməkdə ittiham edənlər bu gün onların demokratiyaya və insan hüquqlarına verdiyi dəyərdən ağız dolusu danışırlar. 1993-2005-ci illər arasında rəhbərlik etdiyi qrumdan yüzlərlə işçini heç bir əsas olmadan işdən çıxardan, əllərində yerli və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları olmasına baxmayaraq iş yerinə bərpa etməyən, nazirlikdə ən sərt despotik- avtoritar rejim yaratmış bəziləri bu gün demokrat imic formalaşdırmaq üçün dəridən-qabıqdan çıxırlar. Müxalifət liderlərini "genetik xəstə", "övladları üçün xəcalət mənbəyi" adlandıran, KİV nümayəndələrinə ən təhqiramiz formada həqarət edən şəxslər bu gün qapılarının mətbuata açıq olduğunu elan edir. Qəribə işlər baş verir. Görünür, Azərbaycan penitensiar xidməti işini elə qurub ki, sanki möcüzə baş verir - ora avtoritar düşən mələk cildinə bürünüb demokrat kimi çıxır.

Digər tərəfdən, radikal - antimilli ünsürlər Azərbaycanda genişmiqyaslı islahatların, vətəndaşların mənafeyinə xidmət edən tədbirlərin guya məhz öz "mitinq"lərinin nəticəsində həyata keçirildiyini iddia edirlər. Onlar bununla ölkəmizin inkişafının, reallaşdırılan tədbirlərin, eləcə də əfv sərəncamının üzərinə kölgə salmağa çalışırlar. Radikal ünsürlər, əslində, qərəzli şəkildə "siyasi məhbus" olaraq qələmə verdikləri şəxslərin əfv olunmasını istəmirlər, çünki onların məqsədi həmin şəxslərin həbsdə qalması və bu şəxslərin adından sui-istifadə etməkdir. Azərbaycan xalqı bütün bunları görür, bu radikal - antimilli ünsürlərin anti-Azərbaycan və erməniperəst dairələrə xidmət etdiklərini, milli maraqlara zidd mövqedə durduqlarını yaxşı bilir. O səbəbdən bu marginal qrupların sosial bazası yoxdur, onlar xalq tərəfindən dəstəklənmir.

Bütövlükdə, əfv sərəncamının imzalanması yüksək humanizm nümunəsi olmaqla yanaşı, dövlətin öz vətəndaşlarına verdiyi dəyərin ifadəsidir. Yüzlərlə ailənin, minlərlə insanın sevincinə səbəb olan bu sərəncamın imzalanmasına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkür edir, sonsuz minnətdarlığımızı bildiririk. Bu, Ulu öndər Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin mərkəzində insan amilinin dayandığını, bu siyasətin humanizmə və ədalətə söykəndiyini göstərir.

***Siyavuş Novruzov***
***Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP İcra katibinin müavini***

## Bahar Muradova: Novruz tonqallarını doğma Qarabağımızda qalayacağıq

Xalqımızın milli bayramı olan Novruz cəbhə bölgəsində yerləşən Füzuli rayonunda el şənliyi kimi geniş qeyd olunub. Baharın gəlişi münasibətilə Horadiz şəhərindəki Olimpiya İdman Kompleksində ümumrayon tədbiri keçirilib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, mərasim iştirakçıları Novruz adət-ənənələrini özündə əks etdirən sərgi ilə tanış olublar. Milli adət-ənənələrimizə uyğun olaraq qız-gəlinlər yun darayıb, nehrə çalxayıb, sacda yuxa bişiriblər.



Dədə Qorqud və Bahar qız meydana daxil olub, Novruz tonqalı alovlandırılıb. Mərasimdə çıxış edən Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev iştirakçıları bayram münasibətilə təbrik edib, onlara cansağlığı, xoşbəxtlik, bol ruzi və əmin-amanlıq arzulayıb. O, milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü dövlət siyasətindən, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın bu sahədəki xidmətlərindən bəhs edib.

Bayram mərasimində iştirak edən Milli Məclis sədrinin müavini Bahar Muradova füzulililərə xalqımızın əziz bayramı münasibətilə xoş arzularını çatdırıb. "Novruz bayramı arzuların, niyyətlərin həyata keçməsi bayramıdır. İnanıram ki, işğal altında olan torpaqlarımız Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində tezliklə azad ediləcək və biz Novruz tonqallarını doğma Qarabağımızda qalayacağıq", - deyə B.Muradova bildirib.

Novruzun personajları olan Kosa və Keçəl, Uşaq Yaradıcılıq Mərkəzinin şagirdləri tonqal ətrafında yallı gediblər. Bayram adətinə görə uşaqlar yumurta döyüşdürüblər. Kosa və Keçəlin şən zarafatları, Dram Teatrının aktyorlarının ifasında yumoristik səhnələr, rayon idmançılarının nümunəvi çıxışları, mədəniyyət işçilərinin konsert proqramı tədbir iştirakçılarının bayram əhval-ruhiyyəsini daha da artırıb.

## Rəşid Alimov: VII Qlobal Bakı Forumunun iştirakçıları və məzmunu mənə güclü təsir bağışladı

Qlobal Bakı Forumu müasir dünya siyasətinin və iqtisadiyyatının demək olar ki, bütün istiqamətlərini, o cümlədən problemli məsələləri əhatə edir. Ən başlıcası, bu forumda bir qədər gələcəyə baxmağa cəhd göstərilir.



Şanxay Əməkdaşlıq Təşkilatının sabiq baş katibi, Bakıda keçirilən VII Qlobal Bakı Forumunun işində iştirak etmiş Rəşid Alimov bu fikri AZƏRTAC-a müsahibəsində söyləyib. Rəşid Alimov forum barədə ümumi təəssüratlarını bölüşərək deyib: "Bakı Forumunun işində ilk dəfə iştirak etdim. Keçənilki Forumun işində bəzi obyektiv səbəblərə görə iştirak edə bilmədim. Demək istəyirəm ki, bu Forum, ilk növbədə öz məzmunu və iştirakçıların həyəti ilə diqqəti cəlb edir".

Onun sözlərinə görə, Forumun gündəliyi həm müxtəlif ölkələrin maraqlarının ortaq "ağrılı" nöqtələrini, həm də demək olar ki, bütün əsas mövzuları əhatə edir. Rəşid Alimov vurğulayıb: "Məsələ ondadır ki, diskussiyalar zamanı hər kəs ayırıcı nöqtələri deyil, təmas nöqtələrini, yəni birgə artım nöqtələrini axtarır. Forumun açıqlığı da mühüm amildir. Bu, zalda aşkar hiss olunur. Forum iştirakçıları çox yüksək statusa malikdir. Burada hazırda fəaliyyətdə olan prezidentlər və baş nazirlər, həmçinin əvvəllər dövlət və hökumət başçıları olmuş şəxslər, ekspertlər var. Onlar hamısı burada çox ciddi şəkildə təmsil olunub, müasir beynəlxalq münasibətlərin təşkilində bəlkə də çatışmayan ən mühüm elementi vurğulayırlar. Bu elementin mahiyyəti qarşılıqlı etimad və açıqlıqdır".

# "Əfv sərəncamları ailələrə sonsuz sevinc bəxş edib"



"Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən əfv sərəncamının imzalanması artıq ənənə halını alıb və belə sərəncamların hər biri yüzlərlə vətəndaşımızın ailələrinə sonsuz sevinc bəxş edib". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, məhkum edilmiş şəxslərin əfv edilməsi hər şeydən əvvəl böyük humanizmdir: "Buna paralel olaraq həm də Azərbaycanda həyata keçirilən davamlı hüquqi islahatlar cəza siyasətinin humanistləşdirilməsi üçün şərtlər formalaşdırır. Xüsusi təhlükəli hallar istisna olmaqla təcridetmədə cəzanın yüngülləşdirilməsi imkanları yaradır. Bu dəfəki sərəncamla 400 yüzdən çox vətəndaşımız əfv edildi. Onların işərisində xarici ölkə vətəndaşları da var idi. Əfvetmə cəmiyyətimizdə, onun ictimai rəyində olduqca müsbət hadisə kimi qarşılandı və şübhəsiz ki, ümumi ictimai həmrəylik baxımından əlamətdar hadisəyə çevrildi. Hər bir cəmiyyətdə ayrı-ayrı fərdlər və sosial stratalar bəzən hüququ texniki baxımdan özünəməxsus şəkildə şərh edir və elə ona uyğun olaraq da dərk edirlər. Məhkəmə hüquq sistemi nə qədər adil olursa-olsun hüquqi qərarlar bəzən subyektiv prizmadan yozulur.

Əfv fərmanları həm də bu məsələdə ümumiləşdirici və birləşdirici funksiya yerinə yetirməklə ümumi münasibətlər sistemində müsbət hal kimi asossasiya olunur. Əlbətdə bu faktor da vacibdir və pozitiv əhval-ruhiyyə yaratmaq baxımından əhəmiyyətlidir. Məsələnin ən mühüm tərəflərindən biri də əfvin Azərbaycan Prezidentinin siyasi iradəsi və xalqımızın humanist ənənələrinə söykənməsi əsaslarında baş tutmasıdır. Azərbaycan hakimiyyəti bunu müstəqil siyasi iradəsinə söykənərək edir və bu zaman hələ 1995-cil ildə qəbul edilmiş Konstitusiyamızın yaratdığı hüquqi fəlsəfəyə istinad edir. Ona görə də Azərbaycan cəmiyyətində vaxtaşırı əfv olacağı ilə bağlı bir gözlənti olur və bu da insanlarda həmişə ümid yaradır. Məhkum edilmiş şəxslər isə bu hadisəni öz səhvlərini bir daha təkrar etməmək üçün fürsət kimi görürlər. Beləliklə də əfv hadisəsi hüquqi cəzadan da artıq tərbiyəedici vasitəyə çevrilir. Ona görə də imzalanan hər əfv sərəncamı cəmiyyətimiz və məhkumluqdan azad edinlənlər üçün sözün həqiqi mənasında əlamətdar hadisəyə çevrilir".

# Bəhruz Quliyev: "Əfv sərəncamı dövlət başçısının humanizm siyasətinin bariz göstəricisidir"



Prezident İlham Əliyevin Novruz bayramı ərəfəsində imzaladığı əfv sərəncamı ilk növbədə dövlət başçısının humanizm siyasətinin bariz göstəricisidir. Bunu Trend-ə açıqlamasında "Səs" Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.

B.Quliyev bildirib ki, bu siyasət artıq ənənə halını alıb və Novruz bayramı ərəfəsində əfv sərəncamının 431 nəfərə şamil olunması həmin siyasətin bariz sübutudur: "Prezident İlham Əliyev yürütdüyü siyasətdə daim insan amilinin prioritet təşkil etdiyini vurğulayır. Bu baxımdan humanizm prinsipinə söykənən əfv sərəncamları da sözügedən faktoru tamamlayır. Artıq Novruz bayramı ilə əlaqədar möhtərəm Prezidentimiz əfv sərəncamı imzaladı və bu, kifayət qədər insana şamil olundu ki, onlar da bu bayramı öz evlərində, isti ailə ocaqlarında keçirsinlər".

Ekspert daha bir maraqlı məqama da toxunaraq qeyd edib ki, zaman-zaman Azərbaycanda mövcud demokratik dəyərlərə qərəzlə yanaşan bir sıra dairələr nədənsə bu cür mühüm sərəncamlara heç bir münasibət bildirmirlər: Nədənsə belə təşkilatlar bu cür humanist addımlar atılanda səslərini çıxarmırlar. Təbii ki, belə humanist addımları dilə gətirmək, Azərbaycanda humanizm siyasətinin hətta digər aparıcı dövlətlərə nümunə olduğunu etiraf etmək onlara sərf etmir, çünki nə qədər bu məsələləri gizlətsələr, onlara bir o qədər sərfəlidir. Ona görə, bir amilə də toxunmaq istərdim ki, onların humanizm prinsipləri heç vaxt olmayıb və yoxdur. Onların prinsipi odur ki, Azərbaycana qarşı qarayaxma kampaniyaları aparsınlar. Ancaq gördüyümüz kimi, müstəqil siyasətimiz və sosial sahədə uğurlarımız, aparılan inqilabi islahatlar bizi istəməyənləri susdurur".

B.Quliyev vurğulayıb ki, Prezident İlham Əliyevin yürütdüyü və sosial ədaləti təmin edən humanizm siyasəti davam edəcək: "Artıq vətəndaşlar da şahiddir ki, Prezident xalqın yanındadır və hər an hər bir problemi şəxsən həll etməyə hazırdır. Bu gün məhbus ailələrini sevindirən cənab İlham Əliyev sözügedən əfv sərəncamı ilə öz ardıcıl humanist siyasətini bir daha nümayiş etdirdi".

Qeyd edək ki, martın 16-da Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında sərəncam imzalayıb. Əfv sərəncamı ümumilikdə 431 nəfərə şamil olunub. Onlardan azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 399 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib. Əfv sərəncamı, o cümlədən, 14 xarici vətəndaşa şamil olunub.

# "ASAN xidmət" və "ASAN Kommunal" bayram günlərindən sonra martın 25-də fəaliyyətə başlayacaq




Novruz bayramı ilə əlaqədar "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində martın 20-dən martın 24-dək qeyri-iş günü olacaq. Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən məlumat veriblər. Martın 25-dən etibarən isə mərkəzlərə müvafiq xidmətlərdən yararlanmaq üçün mərkəzlərə müraciət etmək olar. Qeyd edək ki, vətəndaşlar iş qrafiki, göstərilən xidmətlərlə əlaqədar ətraflı məlumatı 108 "Çağrı" Mərkəzi vasitəsilə əldə edə bilərlər.

# KİVDF-nin Müşahidə Şurası müsabiqənin nəticələrini təsdiq edib



Martın 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Müşahidə Şurasının növbəti iclası keçirilib. KİVDF-dən AZƏRTAC-a bildiriblər ki, iclasda Fondun yaradılmasının 10-cu ildönümü və Novruz bayramı münasibətilə keçirilmiş ənənəvi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri müzakirə edilib.

Fondun icraçı direktoru Vüqar Səfərli iclasın gündəliyi barədə məlumat verib. İcraçı direktor Fondun yaradılmasının 10-cu ildönümü və Novruz bayramı münasibətilə elan edilmiş müsabiqənin 2019-cu il fevralın 1-dən martın 15-dək davam etdiyini bildirib. Vüqar Səfərli Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqamət üzrə keçirilən müsabiqəyə 54 KİV-dən 145 yazının təqdim olunduğunu, yazıların 12 ekspert tərəfindən qiymətləndirildiyini diqqətə çatdırıb.

Sonra müsabiqənin ekspertlərin rəyləri əsasında hazırlanmış yekun nəticələri iclasın müzakirəsinə təqdim edilib. Müşahidə Şurasının sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən - Bəhruz Quliyev, İntiqam Hümbətov, Ayaz Mirzəyev, Əvəz Rüstəmov və Rasim Həsənov Fondun keçirdiyi müsabiqələrin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, yaradıcı əməyin stimullaşdırılması və sosial vəziyyətlərinin yaxşılaşdırılması baxımından əhəmiyyətini qeyd ediblər. Müzakirələrin yekununda müsabiqənin şərtlərinə uyğun olaraq istiqamətlərin hər biri üzrə qaliblər elan edilib, ümumilikdə, 109 nəfər jurnalistin mükafatlandırılması haqqında qərar qəbul olunub.

# Viktor Yuşşenko: Azərbaycan qlobal forumu təşkil etməyi bacaran regional liderdir



2005-2010-cu illərdə Ukraynanın Prezidenti olmuş Viktor Yuşşenko VII Qlobal Bakı Forumu barədə təəssüratlarını bölüşüb. O, AZƏRTAC-a müsahibəsində deyib: "Forum barədə təəssüratlarım çox yaxşıdır. Platformalar, mürəkkəb diskussiyalar çox maraqlı və ən başlıcası, aktualdır. Mənim fikrimcə, bu gün deyə bilərik ki, Azərbaycan qitənin, regionun və dünyanın ən aktual məsələlərinə dair qlobal forumu təşkil etməyi bacaran regional liderdir.

Dünən cənab Əliyevlə görüşdük. Onunla danışıqlarımızın yekununa, Azərbaycan-Ukrayna münasibətlərinin perspektivlərinə və ən başlıcası, Qlobal Bakı Forumu çərçivəsində təklif olunan dialoqda iştirak etmək, diskussiya aparmaq imkanına görə çox sevinirəm və məmnunluq duyuram".

# Ermənistan hökumətinin "Qazprom"la danışıqları uğursuz başa çatıb



Ermənistan hökumətinin "Qazprom-Armenia" şirkəti ilə təbii qazın qiymətlərinin aşağı salınması üzrə iki ay davam edən danışıqları uğursuz başa çatıb. AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində Ermənistan baş nazirinin müavini Tiqran Avinyan deyib. Onun sözlərinə görə, danışıqlar üçün ayrılan iki aylıq müddət başa çatıb və tərəflər razılığa gələ bilməyiblər. Avinyan əlavə edib ki, danışıqlar davam etdiriləcək və hər hansı nəticə barədə ictimaiyyətə məlumat veriləcək.

Xatırladaq ki, hələ ötən ili dekabrında Rusiya şirkəti Ermənistana satılan təbii qazın artırılacağı barədə bəyanat verməşdi. İndi Paşinyan hökuməti əhaliyə satılan mavi yanacağın qiymətinin sabit saxlanılması üçün yeni variantlar axtarır. Lakin ekspertlər bunun mümkün olmayacağını, tezliklə əhaliyə verilən qazın qiymətlərinin artacağını qeyd edirlər. Çünki Ermənistanın baş naziri ötən ilin dekabrında bəyan edib ki, hökumət daxili tələbat üçün təbii qazın qiymətlərinə subsidiya ayırmayacaq və gələcəkdə borc müqabilində qarşı tərəfə heç bir səhmlər və ya müəssisələr verilməyəcək.

# Bakıda silahlı şəxs saxlanılıb

Xəzər Rayon Polis İdarəsinin 2-ci polis şöbəsinin əməkdaşları vətəndaşlarda qanunsuz saxlanılan odlu silah-sursatın aşkarlanması istiqamətində uğurlu əməliyyat keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəllər dəfələrlə məhkum olunmuş Binə qəsəbə sakini Mehman Əbilov şöbənin əməkdaşlarının keçirdikləri əməliyyat nəticəsində saxlanılıb. Onun üzərində axtarış aparılan zaman kustar üsulla hazırlanan tapança və 22 patron aşkarlanaraq maddi sübut kimi götürülüb. M.Əbilov ifadəsində odlu silah-sursatı bir müddət əvvəl tapdığını və həmin gündən bəri üzərində gəzdirdiyini bildirib.

# Humanizm siyasətinin növbəti parlaq nümunəsi

*Prezident İlham Əliyev tərəfindən imzalanan Əfv Sərəncamı Novruz bayramı ərəfəsində xalqa böyük hədiyyədir*

**Dövlət başçısı, ənənəvi olaraq, bayram günləri - bir sıra əlamətdar tarixlər öncəsi imzaladığı əfv sərəncamları ilə xeyli sayda insanı azadlığa qovuşdurur. Martın 16-da Prezident İlham Əliyevin imzaladığı Əfv Sərəncamı ilə 431 nəfər əfv edilib. Əfv Sərəncamı şamil edilənlərdən 396 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib.**





Ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş bir nəfərin cəzası 25 il, 2 nəfərin cəzası isə 20 il müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəz edilib. Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və cəzasının çəkilməsi təxirə salınmış bir nəfər cəzadan azad edilib. Azadlıqdan məhrumetmə cəzasına şərti olaraq, məhkum edilmiş 11 nəfər də cəzadan azad olunub. Bunda başqa, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş bir nəfər, islah işləri cəzasına məhkum edilmiş 3 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib. 1 nəfər ictimai işlər cəzası, 12 nəfər isə cərimə cəzasından azad edilib.

Beləliklə, yüzlərlə ailə Novruz bayramını daha böyük sevinclə, gülər üzlə keçirəcək. Yüzlərlə insan bayram ərəfəsində doğmalarına, qohumlarına qovuşacaqlar. Bu, Azərbaycan dövlətinin və onun başçısının artıq illərdir davam etdirdiyi humanizm siyasətinin növbəti təzahürüdür.

## Dövlət başçısının humanizmin və insansevərliyin əsas prinsip olması rəqəmlər və faktlarla



Prezident İlham Əliyevin fəaliyyətində humanizmin və insansevərliyin əsas prinsip olmasını rəqəmlər və faktlar da təsdiqləyirlər. Bu gün imzalanan Sərəncam 2003-cü ildən bəri dövlət başçımızın imzaladığı sayca 33-cü əfv sənədidir. Ümumilikdə, 16 il ərzində imzalanan fərman və sərəncamlarla 4.500-dən çox şəxs azadlığa buraxılmaqla, 5 minə yaxın məhkum əfv edilib. Təsadüfi deyil ki, əfv sənədləri, adətən, bayramlar ərəfəsində imzalanır. Bununla da dövlət başçısı yüzlərlə insana dünyada ən qiymətli neməti - azadlığı hədiyyə edir. Bir faktı qeyd etmək istərdik. Belə ki, ötən il də mayın 24-də, Cümhuriyyətin 100 illiyi münasibətilə 634 şəxs əfv olundu. Göstərilən rəqəmlər onu bir daha təsdiqləyir ki, imzalanan Əfv Fərmanı ölkənin siyasi-ictimai həyatında mühüm hadisə kimi qiymətlənir. Çünki bu humanizm və insanpərvərlik siyasətinin kökləri



Ulu Öndər Heydər Əliyevin atdığı addımlardan qaynaqlanır. Belə ki, Ulu Öndər ölkə rəhbərliyinə qayıdandan sonra, 1995-ci ildə əfv və amnistiya praktikasını bərpa etdi və hakimiyyətdə olduğu dövrdə, ümumilikdə, 65 Fərman və Sərəncamla 8 minə yaxın şəxs əfv olundu.

1995-ci ildən başlayaraq, bu günə qədər qəbul edilmiş 11 Amnistiya Aktı, ümumilikdə, 117.000-ə yaxın şəxsi əhatə edib ki, onlardan da 30.000-i azadlığa buraxılıb. Qalanların cəzaları müxtəlif formalarda yüngülləşdirilib. Bu amnistiya aktlarından sonuncu - 4-ü, yəni 2007, 2009, 2013 və 2016-cı illərdə baş tutan amnistiyalar Heydər Əliyev Fondunun Prezidenti, Mehriban xanım Əliyevanın təşəbbüsləri olub. 2016-cı ilin amnistiyası 10.000-dən çox məhkumu əhatə etmiş, 3.000-ə yaxın şəxs penitensiar müəssisələrdən buraxılıbdır.

Göstərilən bu faktlar, bir daha onu təsdiqləyir ki, humanizm Azərbaycan iqtidarı üçün prioritet dəyərlərdən biridir. Həm də, məhz bu səbəbdən, cəzaların yüngülləşdirilməsi, alternativ cəza növlərinin tətbiqi istiqamətində



fəal iş aparılır. Çünki dövlətin məqsədi, əsla, vətəndaşını cəzalandırmaq deyil. Dövlətin məqsədi vətəndaşı islah etmək, qanunsuz əməllərdən uzaqlaşdırmaqdır. Çünki Azərbaycan Prezidenti beynəlxalq təşkilatların tələblərindən çox, Azərbaycan vətəndaşının mənafeyini daha üstün tutur. İmzaladığı Sərəncamı ilə ailələrə ikiqat sevinc bəxş edən dövlətimizin başçısının növbəti humanist addımı, bir daha göstərir ki, ölkəmizdə insan amilinə diqqət dövlət siyasətinin əsas parametrlərindəndir. “Biz qanunun aliliyinin təmin olunduğu, yüksək səviyyədə şəffaflıq olan, hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşadığı və bütün azadlıqlardan istifadə etdiyi cəmiyyət qururuq” deyən dövlətimizin başçısı İlham Əliyev, eyni zamanda, diqqətə çatdırır ki, iqtisadi artım, cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz mümkün ola bilməz: “İqtisadi cəhətdən güclü ola bilərsən, amma demokratiya yoxdursa, şəffaflıq yoxdursa, insan hüquqları qorunmursa, uğur qazana bilməzsən”.

Bəli, bu gün Azərbaycanda mövcud olan dinamik inkişaf insan hüquqlarının müdafiəsi sahəsində aparılan ardıcıl islahatların davam etdirilməsini şərtləndirir. Ölkəmizin normativ-hüquqi aktlarının insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunluğunun təmin edilməsi, beynəlxalq təşkilatlarla yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsi, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi, hüquqi maarifləndirmə işinin genişləndirilməsi, dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi kimi vəzifələr müəyyən edilib.

**RƏFİQƏ KAMALQIZI**

## “Əfv sərəncamı yüzlərlə ailəyə əsl bayram sevinci bəxş etdi”

*Əfv olunanlar sevinclərini SİA ilə bölüşdülər*

***Azərbaycanda əfv siyasətinin əsasını Ümumilli Lider Heydər Əliyev qoyub. Ulu Öndərin təşəbbüsü ilə ölkəmizdə dəfələrlə amnistiya aktları qəbul edilib, əfv sərəncamları imzalanıb. Qürurverici haldır ki, bu siyasət Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Prezidentin martın 16-da imzaladığı əfv sərəncamı yüzlərlə ailəyə əsl bayram sevinci bəxş etdi. Ən əsası, bu Sərəncam Azərbaycanın hüquqi demokratik dövlət olduğunu, humanist dəyərlərə sadiqliyini bir daha bütün dünyaya göstərdi. Əfv olunan şəxslər öz sevinclərini SİA ilə bölüşüblər.***



**Əfv olunan şəxs Tamara Məmmədova:** “Mən 1946-cı ildə anadan olmuşam. Allah sizin gələn ayaqlarınızı var etsin. Çünki sizlər bizi yada salıb bura gəlmisiniz. Möhtərəm Prezidentimiz və onun ailəsi hər zaman var olsun ki, bizləri bağışladı və azadlığa buraxdı. Qoy, içəridə qalan məhkumlara da Allah bir yol açsın. Biz Prezidentin əfvlə bağlı sərəncamını gözləyirdik. Azad olunacağım xəbərini eşidən kimi isə sevincimin həddi-hüdudu yox idi. Mənim həbsdən azad olunmağıma düz iki il qalmışdı”.



**Əfv olunan şəxs Təranə Abbasova:** “Allah Prezidentimizə, onun xanımı birinci vitse-prezident Mehriban xanım Əliyevaya can sağlığı versin. Dövlət başçımız Qarabağ müharibəsində iştirak etdiyimə görə məni əfv etdi və bir balama qovuşdurdu. Onların qarşıdan gələn Novruz bayramlarını təbrik edirəm. Mən 2015-ci ildə narkotik üstündə həbs olunmuşdum. Övladım və nəvəm var. Bugünkü gün mənim ən sevincli günümdü. Allah heç kimin yolunu həbsxanaya salmasın”.



**Əfv olunan şəxs Sevinc Mollayeva:** “Əfv olunacağımı heç cür gözləmirdim. Çünki inanmırdım. İlk dəfə idi ki, qadın həbsxanasından 25 nəfər azadlığa buraxılır. Prezidentimizə təşəkkürümü bildirirəm və ailəsini qarşıdan gələn bayram münasibətilə təbrik edirəm. İnşAllah bu sərəncamlar tez-tez imzalanar və qarşıda böyük bir amnistiya aktı olar. Törətdiyim əməldən çox peşman idim. Çünki oğurluq üstündə həbs olunmuşdum”.



**Əfv olunan şəxs Elxan Həsənov:** “Prezidentə və onun ailəsinə öz təşəkkürümü bildirirəm. Bu bayram günü biz ikiqat sevinc yaşadıq. Allah həbsdə olan şəxslərin hər birinə azadlıq qismət eləsin. Hamıya çoxlu duamız vardır. 12 il müddətinə həbs olunmuşdum”.



**Əfv olunan şəxs Fərhad Xəlilov:** “Mənim 12 il cəzam vardı. Çox sevincliyəm. Azad olmaq çox yaxşı bir şeydir. Çünki Allah insanı azad yaradıb. Biz həbsdə olarkən valideyinlərimiz çox əziyyət çəkirdi. Əgər onlar sevinirsə, bu sevinc bizə də sirayət edir”.



**Əfv olunan şəxs Səbuhi Həsənli:** “Cənab Prezident İlham Əliyev məni bağışladığına görə bütün dustaqlar və valideyinlərimizin adından təşəkkürümü bildirirəm. Artıq mən Novruz bayramını öz evimdə qeyd edəcəm. Bu bayram münasibətilə də Prezidentimizi, ailəsini və xalqımızı ürəkdən təbrik edirəm”.

***Müəllif: Ceyhun Rasimoğlu***

# Hazırda ölkə əhalisinin bir çox ərzaq məhsullarına olan tələbatı yerli istehsal hesabına tam təmin edilir

*Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimovun yap.org.az-a müsahibəsi*

***-Eldar müəllim, məlum olduğu kimi ölkəmiz sosial-iqtisadi baxımdan dinamik inkişaf edir. Bu inkişaf aqrar sektorda necə əksini tapır?***

- Son 15 ildə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızda həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət və islahatlar dövrün çağırışlarına uyğun inkişaf modelinin tətbiqinə, biznes və investisiya mühitinin yaxşılaşdırılmasına, iqtisadiyyatın modernləşdirilməsi və şaxələndirilməsinə, makroiqtisadi sabitliyin və maliyyə dayanaqlığının təmin edilməsinə möhkəm zəmin yaradıb. Bu siyasət sayəsində ölkəmizin əldə etdiyi inkişaf dinamikası dünyada çox nadir hallarda baş verir. Təkcə onu demək kifayətdir ki, 2004-2018-ci illərdə ÜDM real olaraq 3,3 dəfə, sənaye məhsulu 2,6 dəfə, kənd təsərrüfatı məhsulu 1,7 dəfə, əsas kapitala yönəlmiş vəsaitlər 3 dəfə, orta aylıq real əmək haqqı 2,4 dəfə, real pensiyalar 3,2 dəfə artıb, işsizlik 1,6 dəfə azalıb, yoxsulluq səviyyəsi 2003-cü ildəki 44,7 faizdən 2018-ci ilin sonunda 5,1 faiz səviyyəsinə düşüb.

Məlumdur ki, hər bir ölkənin iqtisadi, sosial və siyasi həyatında kənd təsərrüfatı çox mühüm əhəmiyyət kəsb edir. Belə ki, kənd təsərrüfatının inkişafı ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas bazadır. Hansı ölkə öz əhalisini yerli kənd təsərrüfatı məhsulları ilə təmin edə bilmirsə, o, həmin məhsulları maliyyə ehtiyatları imkan verdiyi səviyyədə xarici ölkələrdən idxal etməklə bu məsələni həll etmək məcburiyyətində qalır. Bu da öz növbəsində həmin ölkəni məhsulların idxal etdiyi ölkələrin iradəsinə tabe etməklə, həm iqtisadi və həm də siyasi cəhətdən onlardan asılı vəziyyətə salır. Belə ölkələr heç vaxt müstəqil siyasət yeridə bilmirlər. Digər tərəfdən kənd təsərrüfatının inkişafı ölkədə kənd təsərrüfatı ilə yanaşı həm də yeyinti, emal, yüngül, maşınqayırma və kimya sənayesinin, habelə ticarət, nəqliyyat və anbar təsərrüfatının və digər sahələrin inkişafını təmin edir.

Qeyd etmək lazımdır ki, kənd təsərrüfatının ölkənin sosial-iqtisadi və siyasi həyatındakı əhəmiyyəti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən hakimiyyətinin ilk dövründən başlayaraq düzgün qiymətləndirilmiş və dövlət başçısı aqrar sahəni iqtisadiyyatın qeyri-neft bölməsinin prioritet istiqaməti elan etmişdir. Prezident İlham Əliyev Nazirlər Kabinetində keçirdiyi bütün iclaslarda, digər görüş və müsahibələrində dəfələrlə vurğulamışdır ki, ölkənin aqrar siyasətinin əsas məqsədi Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinin tamamilə yerli istehsal hesabına ödənilməsi və bəzi kənd təsərrüfatı məhsulları və ərzaq mallarının xarici bazarlara Azərbaycan



brendi ilə ixracının təmin edilməsidir. Qarşıya qoyulan bu vəzifənin uğurla həyata keçirilməsi üçün keçən 15 il ərzində ölkəmizdə çox böyük əhəmiyyəti olan geniş miqyaslı tədbirlər görülmüşdür. Bu düşünülmüş siyasətin nəticəsidir ki, 2018-ci ildə ilk dəfə olaraq respublikamızda dəyəri 7010 milyon manat olan kənd təsərrüfatı məhsulu istehsal edilmişdir. Keçən il əldə edilmiş ümumi daxili məhsulun(79797 milyon manat) 5,3 faizi və ya 4190 milyon manatı kənd təsərrüfatının payına düşmüşdür. Əldə edilən bu rekord göstəricilər heç də asan başa gəlməmiş, ölkəmizdə elmi əsaslara əsaslanan aqrar siyasətin formalaşması və uğurla həyata keçirilməsi sayəsində mümkün olmuşdur. Kənd təsərrüfatı bitkilərinin əkin sahəsi həmin dövr ərzində 37 faiz artaraq 1 milyon 666 min hektara çatmışdır. Hazırda ölkə əhalisinin bir çox ərzaq məhsullarına olan tələbatı yerli istehsal hesabına tam təmin edilir.

***- Ötən həftə Milli Məclisdə Nazirlər Kabinetinin 2018-ci ildəki fəlaiyyəti haqqında hesabat təqdim olundu. Bu hesabata münasibətiniz necədir?***

-Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun geniş və əhatəli məruzəsi, təqdim edilmiş materialların təhlili onu deməyə əsas verir ki, əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilən iqtisadi və sosial siyasət nəticəsində ölkəmiz əvvəlki illərdə olduğu kimi keçən ildə də öz dinamik inkişafını davam etdirmişdir. Ona görə də biz böyük əminliklə 2018-ci ili hesabatda qeyd edildiyi kimi makroiqtisadi dayanıqlıq, maliyyə sabitliyi, geniş islahatlar, iqtisadi yüksəliş, qeyri-neft sənayesinin yüksək artımı, sosial siyasətin və sosial təminatın möhkəmlənməsi, əhalinin gəlirlərinin artımı ili kimi qiymətləndiririk. Heç də təsadüfi deyildir ki, bir çox beynəlxalq təşkilatların iqtisadi və sosial inkişafın çoxsaylı göstəricilərinə əsasən apardıqları hesablamalara görə Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlər yüksək qiymətləndirilmiş və dünya ölkələri arasında öncül yer tutmaqla əvvəlki mövqeyini xeyli yaxşılaşdırmışdır. Bütün bunlar isə əlbəttə ki, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının təklifi ilə formalaşmış yeni hökumətin əzmkar fəaliyyəti nəticəsində əldə edilmişdir.

Aqrar sahəyə gəlincə, ötən il Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı stimullaşdırıcı tədbirlər davam etdirilmiş və bu məqsədlə dövlət büdcəsindən 297 milyon manat vəsait ayrılmışdır ki, bu da 2017-ci ilə nisbətən 107 milyon manat və ya 56 faiz çoxdur. Bu da şübhəsiz ki, bütövlükdə hökumətin və o cümlədən Kənd Təsərrüfatı Nazirliyinin həyata keçirdiyi şəffaflıq və fermerlərlə sıx əlaqə yaratmaq istiqamətində fəaliyyəti nəticəsində əldə edilmişdir. Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə arıçılığın inkişafını stimullaşdırmaq üçün keçən il hər arı ailəsinə görə fermerlərə 10 manat məbləğində subsudiya müəyyən edilmiş, habelə gübrələrin və biohumusun satış qiymətinə tətbiq edilən güzəştlərin ümumi məbləğinin yuxarı həddi 50 faiz, pestisidlərin satış qiymətinə tətbiq edilən güzəşt məbləğinin yuxarı həddi isə 5 dəfə artırılmışdır.

Azərbaycan Respublikasının Nazirlər Kabineti ölkəmizdə kənd təsərrüfatının innovativ inkişafını təmin etmək, rəqabət qabiliyyətli məhsul istehsal edib Azərbaycan brendi ilə xarici bazarlara çıxarmaq istiqamətində əsaslı işlər görmüşdür. Belə ki, keçən il 31 rayonun ərazisində 193 min hektar torpaq sahəsində dəyəri 1,4 milyard manat olan 46 aqroparkın yaradılması üzrə işlər davam etdirilmiş və onlardan 17-si artıq fəaliyyətə başlamışdır. Bu aqroparkların və iri təsərrüfatların torpaq sahəsi ilə təmin etmək üçün Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə 189 min otlaq sahəsi əkin dövriyyəsinə cəlb edilmiş, bu ərazilər mütərəqqi irriqasiya sistemləri və suvarma şəbəkəsi ilə təmin edilmişdir. İri təsərrüfatların yaradılması son vaxtlar həm də "Kənd təsərrüfatı kooperasiyası haqqında" Qanuna və bu məsələ ilə bağlı qəbul edilmiş Dövlət Proqramına uyğun olaraq Sabirabad və digər rayonlarda fermerlərin kənd təsərrüfatı kooperativlərində könüllü birləşməsi yolu ilə də təşkil edilir. Həyata keçirilən bu və digər tədbirlər isə öz növbəsində kənd təsərrüfatının ümumi istehsalının və ixrac olunan kənd təsərrüfatı məhsullarının həcminin artımına müsbət təsir etmişdir.

***-Görülən bu işlər nəticəsində kənd təsərrüfatı istehsalında artım hansı səviyyədədir?***

- 2018-ci ildə 2017-ci ilə nisbətən 4,6 faiz çox, yeni ölkəmizdə ilk dəfə olaraq 7 milyard manatdan artıq dəyəri olan kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Kənd təsərrüfatı məhsullarının ixracında da uğurlu nəticələr əldə edilmişdir. 2017-ci illə müqayisədə kənd təsərrüfatı məhsullarının ixracı 23,9 faiz artaraq 590 milyon dollar təşkil etmişdir. Ümumiyyətlə isə kənd təsərrüfatı məhsulları ixracının 95 faizi meyvə-tərəvəz məhsullarının payına düşmüşdür. Keçən il pambıqçılığın inkişafı ilə bağlı hökumətin həyata keçirdiyi tədbirlər nəticəsində pambıq istehsalı kəskin surətdə artmaqla yanaşı ilk dəfə olaraq 104 milyon dollar dəyərində pambıq lifi və ipliyi ixrac olunmuşdur ki, bu da 2017-ci ilə nisbətən 2,2 dəfə çoxdur.

Ərzaq təhlükəsizliyinin əsas bazasını təşkil edən kənd təsərrüfatının müasir çağırışlara uyğun təşkili və idarə olunması məhsul istehsalını artırmaqla yanaşı əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına da öz müsbət təsirini göstərmiş və əsas ərzaq məhsulları (buğda istisna olmaqla) yerli istehsal hesabına özünütəminat səviyyəsi 83 faizdən çox olmuşdur. Bütün bunlar isə onu göstərir ki, Nazirlər Kabineti 2018-ci ildə səmərəli fəaliyyət göstərmiş və qarşıda duran vəzifələrin öhdəsində uğurla gəlmişdir.

Bununla yanaşı bəzi məsələləri də qeyd etməyi özümə borc bilirəm. Bildiyiniz kimi, toxumçuluğu və damazlıq heyvandarlığı yüksək səviyyədə olmayan ölkələrdə kənd təsərrüfatının inkişafı həmişə başqa ölkələrdən asılı vəziyyətdə olur. Ona görə də son illər ölkəmizdə Toxum Fondunun yaradılması, yüksək reproduksiyalı toxum və ting satışının stimullaşdırılması, xarici ölkələrdən yüksək məhsuldar damazlıq heyvanların idxalı və digər tədbirlərin həyata keçirilməsi öz təsirini göstərir. Bununla yanaşı apardığımız təxmini hesablamalar göstərir ki, bu ilin məhsulu üçün 668 min hektar buğda səpini sahəsinin 193 min hektarı və ya 28 faizi heç bir reproduksiyaya aid olmayan adi buğda dəni ilə aparılmışdır. İnkişaf etmiş ölkələrin təcrübəsi isə göstərir ki, buğda səpininin ümumi sahəsinin 12-15 faizini elit toxumlarla apardıqda məhsuldarlıq 50-60 faiz artır. Lakin Super elit və Elit toxumların qiyməti baha olduğundan başqa ölkələrdə olduğu kimi bizim fermerlər də bu toxumları almağa çox da meyilli olmurlar. Bu səbəbdən də çox böyük zəhmət hesabına istehsal olunmuş bu toxumlar alınmır və anbarlarda qalıb xarab olur. Bununla əlaqədar təklif edirik ki, Super elit və Elit toxumların satış qiymətinin müəyyən hissəsi dövlət vəsaiti hesabına ödənilsin. Belə olan halda həmin toxumların istehsalı artar, anbarlarda qalmaz və həm də onların əkin sahəsi genişlənər. Bu təcrübədən Rusiya, Qazaxstan və digər ölkələrdə istifadə olunur.

Qeyd etmək lazımdır ki, 2009-cu ildən indiyə kimi ölkəmizə xarici ölkələrdən 31,6 min baş iribuynuzlu damazlıq heyvanlar gətirilməsinə, bir neçə dövlət damazlıq müəssisələrində damazlıq heyvanlar saxlanmasına baxmayaraq 2019-cu il yanvarın 1-i vəziyyətinə respublikamızda cəmi 18726 baş damazlıq iribuynuzlu malın olduğu göstərilir. Bu da hazırda mövcud olan iribuynuzlu malın (2,6 miyon baş) 0,7 faizi deməkdir. Əslində isə damazlıq malın xüsusi çəkisi azı 10-12 faiz olmalıdır ki, yüksək məhsuldarlıqdan danışmaq olsun. Ona görə də damazlıq heyvanların uçotu dəqiqləşdirilməli, bu sahədə elmi-tədqiqatlar və seleksiya işləri gücləndirilməlidir.

## ISESCO martın 15-ni islamofobiya ilə mübarizə günü kimi qeyd etməyi təklif edib




İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESCO) martın 15-ni islamofobiya ilə mübarizə günü kimi qeyd etməyi təklif edib. Təşkilatın bu addımı Yeni Zelandiyanın Kraystçörç şəhərində məscidlərdə ibadət edən 50 insanın qətlə yetirilməsi ilə bağlıdır. Təşkilatın baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycrinin yaydığı bəyanatda qeyd edilir ki, son aylar müsəlmanlara qarşı extremist və nifrət çıxışları artmaqdadır. "İslamofobiya artıq hüquqların kobud şəkildə pozulması ilə müşayiət olunan beynəlxalq fenomenə çevrilib, İslam dünyası ölkələrinin hüdudlarından kənarda müsəlmanların təhlükəsizliyi və əmin-amanlığı ciddi təhdid altına düşüb", -deyə baş katib əlavə edib.

ISESCO-nun baş direktoru hökumətlərə və beynəlxalq təşkilatlara müraciət edərək, onları dünyada sülhə və təhlükəsizliyə ciddi təhlükə yaradan bu ciddi fenomenlə mübarizə ilə bağlı səyləri artırmağa çağırıb. Əbdüləziz bin Osman əl-Tuveycri BMT-yə Yeni Zelandiyadakı qətliam gününü "İslamofobiya, onun bütün təzahürləri və formalarına qarşı beynəlxalq gün elan etməyi" təklif edib.

# Vüqar Rəhimzadə: "Prezidentin növbəti Əfv Sərəncamı humanizmin daha bir təzahürüdür"

**"Demokratik dəyərlərə sadiqlik, insan hüquq və azadlıqlarının qorunması üçün mükəmməl qanunvericilik bazasının yaradılması hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolunda inamla irəliləyən dövlətimizin siyasətinin prioritetləri sırasındadır. Demokratiya təcrübəsi dünyaya nümunə olan Azərbaycanın humanizm prinsiplərinə sadiqliyi beynəlxalq aləmdə də yüksək dəyərləndirilir, 1995-ci ildən bəri imzalanan əfv sərəncamları və qəbul olunan amnistiya aktları demokratiyanın inkişafına xidmət edən mühüm addım kimi şərh olunur. Ümumilikdə atılan hər bir addım insan amilinə verilən dəyərin aydın ifadəsidir". Bu fikirləri SİA-ya YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə dövlətimizin başçısı İlham Əliyevin Novruz bayramı ərəfəsində imzaladığı növbəti əfv Sərəncamını şərh edərkən bildirib.**

V.Rəhimzadə qeyd edib ki, son 15 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyevin insan hüquqlarının qorunması və yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi istiqamətində atdığı addımlar göz önündədir: "Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Milli Konstitusiyamızın qəbulundan ötən 24 ilə yaxın müddət ərzində sənədə əlavə və dəyişikliklərin edilməsi məqsədilə keçirilən 2002, 2009 və 2016-cı illər ümumxalq səsverməsinə çıxarılan dəyişikliklərin bir qismi idarəetmə sistemində təkmilləşməyə xidmət edirsə, digər əsas hissəsi insan hüquq və azadlıqlarının qorunmasına yönəlib. "Dövlətin ali məqsədi" maddəsinə edilən əlavə insan amilinə verilən dəyərin bariz nümunəsidir. Belə ki, həmin əlavədə bildirilir ki, dövlətin ali məqsədi insan hüquq və azadlıqlarının qorunması, həmçinin onların yüksək həyat səviyyəsinin təmin edilməsidir. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 18 iyunun ölkəmizdə İnsan Hüquqları Günü kimi təsis edilməsi də deyilənlərin bariz nümunədir".



Baş redaktor bildirib ki, ulu öndər Heydər Əliyevin həyata keçirdiyi siyasətin əsas tərkib hissəsi olan humanizm prinsiplərinə hörmət və dəyər ölkə Prezidenti İlham Əliyevin siyasətində də öz prioritetliyini saxlayır: "Cənab Prezident İlham Əliyevin əlamətdar günlər ərəfəsində əfv sərəncamları imzalaması əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan humanizm siyasətinin uğurla davam etdirilməsinin təsdiqidir. 1995-ci ildən bu günə 60-dan çox əfv sərəncamı imzalanıb və 11 amnistiya aktı qəbul olunub. Nəticədə on minlərlə insan azadlığa qovuşub. Qeyd edək ki, 32 əfv sərəncamı və 7 amnistiya aktı 1995-2003-cü illərdə həyata keçirilib. Ölüm hökmünün ləğv olunması, əfv sərəncamlarının imzalanması və amnistiya aktlarının qəbulu ilə məhkumların azadlığa qovuşub cəmiyyət üçün faydalı şəxsiyyətə çevrilmələrinə şəraitin yaradılması Heydər Əliyev siyasətinin mühüm istiqamətlərindən biridir. Son amnistiya aktlarından 4-nün təşəbbüsçüsü Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevadır. Qəbul olunmuş hər bir amnistiya aktını humanizm prinsiplərinin, ideyalarının qələbəsi kimi dəyərləndirən Mehriban xanım Əliyeva daim bildirir ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən 1994-cü ildə qoyulmuş bu siyasət nəticəsində minlərlə insan azadlığa buraxılaraq normal həyata qayıdıb və bu gün də bu ənənələr davam edir. Hər bir insan ləyaqətlə və azad yaşamağa layiqdir. Səhv etmiş, yolunu azmış insanlara həyatda yeni şans verməklə, bağışlayıb cəmiyyətimizə qaytarmaqla onlara yenidən həyatın, azadlığın dəyərini dərk etməyə, öz səhvlərini başa düşüb doğru yola qayıtmağa kömək edilir. Mərhəmətlilik, geniş qəlblilik, xeyirxahlıq, bağışlamaq bacarığı ən ali və insani keyfiyyətlər kimi qiymətləndirilib".

V.Rəhimzadə bildirib ki, dövlətimizin başçısı İlham Əliyevin 16 mart 2019-cu il tarixli "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncamı ilə yüzlərlə məhkumun əfv olunması humanizm prinsiplərinə sadiqliyinin bir daha təsdiqidir: "Bu Sərəncam 431 nəfər məhkuma şamil olunub. Onlardan 399-u cəzasının çəkilməmiş hissəsindən azad edilib, həmçinin ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş bir neçə nəfərin cəzası yüngülləşdirilib. Bu mühüm məqamı da unutmayaq ki, əfv Sərəncamı təkcə 431 nəfərə deyil, həmin şəxslərin hər birinin ailəsinə, övladlarına, valideynlərinə bəxş olunan sevincdir ki, bu da ümumilikdə yüzlərlə insanın sevinci deməkdir".

Baş redaktor əlavə olaraq vurğulayıb ki, bütün hüquqlarımız dövlət tərəfindən qorunur: "Hüquqlarımızla yanaşı, vəzifələrimizin də olduğunu unutmamalıyıq. Dövlətimiz üzərinə düşən məsuliyyəti qəbul etdiyi mühüm əhəmiyyətli dövlət proqramları, qanunlarla, imzalanan Fərman və sərəncamlarla gerçəkləşdirirsə, ölkə vətəndaşları da onların icrasına verdikləri töhfələrlə cavablandırmalıdırlar. Azərbaycan demokratiya yolunda inamla irəliləyir. Demokratik dəyərləri dünəninin, bu gününün və sabahının əsası kimi dəyərləndirən Azərbaycan davamlı addımları ilə bu reallığı da diqqətə çatdırır ki, atılan addımlar hansısa dövlətə, təşkilata xoş gəlmək deyil, uğurlu gələcək üçündür. "Biz qanunun aliliyinin təmin olunduğu, yüksək səviyyədə şəffaflıq olan, hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşadığı və bütün azadlıqlardan istifadə etdiyi cəmiyyət qururuq" fikri ilə prioritetləri açıqlayan möhtərəm Prezidentimiz İlham Əliyev, eyni zamanda, bildirir ki, iqtisadi artım, cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir, biri digərsiz mümkün ola bilməz".

# Humanizm və xeyirxahlıq böyüklüyün əlamətidir

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin mart ayının 16-da imzaladığı Əfv Fərmanına əsasən, 431 nəfər cəzalarının çəkilməmiş hissəsindən azad edilib. Bu Sərəncam cəmiyyətdə humanizm və xeyirxahlıq kimi qiymətləndirilib. Söhbət etdiyimiz müsahiblərimiz Prezidentin imzaladığı Əfv Sərəncamını yüksək dəyərləndirir və buna görə ölkə başçısına minnətdarlıq etdilər.**

*Millət vəkili Tahir Kərimli: "Prezidentin Əfv Sərəncamı hamı tərəfindən alqışlanır"*



- Cənab Prezidentin atdığı bu humanist addım təqdirəlayiqdir. Bildiyiniz kimi, Əfv Sərəncamı 431 nəfərə şamil olunub. Elə bir insan ola bilməz ki, bu Sərəncama qarşı etiraz etmiş olsun. Ölkə başçısının Novruz bayramı ərəfəsində yüzlərlə məhkumu əfv etməsi humanizmin göstəricisidir. Əfv olunanlar sırasında müxtəlif siyasi düşüncəyə malik olan insanlar var. Amma buna baxmayaraq, Cənab Prezident siyasi baxışından asılı olmayaraq, hamısına humanizm nümayiş etdirərək, onları əfv elədi. Əfv olunanlar etdikləri səhvi bir daha təkrar etməməlidirlər. Ölkə rəhbəri tərəfindən atılan bu addım böyük siyasi addımdır. Bununla Prezident İlham Əliyev bir daha böyük qəlbə sahib olduğunu göstərdi. Sərəncama görə, Cənab Prezidentə minnətdarıq.

*Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu: "Bu Sərəncamla ölkə rəhbəri hər kəsin Prezidenti olduğunu bir daha ortaya qoymuş oldu"*



- Ölkə rəhbərinin Əfv Sərəncamı son illər ənənə halını alıb. Budəfəki əfv Sərəncamı da mahiyyət etibarı ilə insan hüquqlarının qorunması baxımından, humanizm prinsiplərinə əsaslanır. Sərəncam müxtəlif səbəblərdən məhbus həyatı yaşayan 431 nəfərə şamil olunub. Əfv cəmiyyətin bütövləşməsinin, barışın ifadəsidir. Bu Sərəncamla ölkə rəhbəri hər kəsin Prezidenti olduğunu bir daha ortaya qoymuş oldu. Əfv Sərəncamı, əslində, ölkəmizdə aparılan sosial, iqtisadi, hüquqi dövlət quruculuğu sahəsində aparılan islahatların davamı və məntiqi nəticəsidir. Əslində, əfv dövlət və cəmiyyət arasında möhkəm əsaslara söykənən münasibətlərə bariz nümunədir. Ötən gün mən də ictimaiyyət nümayəndəsi kimi Əfv Sərəncamının icrasında iştirak etdim. 8 saylı, 12 saylı, 13 saylı cəzaçəkmə müəssisələrində oldum. Novruz bayramı öncəsi yüzlərlə insanın - məhkumların, onların ailə üzvlərinin, dostlarının sevinc və fərəh hisslərinin şahidi oldum. Əminəm ki, bu proses gələcəkdə də davam edəcək, neçə-neçə ailəyə sevinc bəxş ediləcək.

*"Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev: "Sərəncam cəmiyyətdə barışa, birliyə yönəlmiş mesaj kimi qiymətləndirilməlidir"*



- Bu Sərəncam bir humanizm aktıdır. Bu cür sərəncamların verilməsi, Azərbaycanda artıq ənənə halını alıb. Cənab Prezident, mütəmadi olaraq, bayramlar ərəfəsində əfv sərəncamları imzalayır. Budəfəki Sərəncam 431 nəfərə şamil olunub. Bunlardan 396 nəfəri cəzanın çəkilməmiş hissəsindən azad edilib. Bu, çox böyük bir göstəricidir. Xeyli sayda Azərbaycan ailəsi yaxınına qovuşaraq seviniblər. Budəfəki Əfv Sərəncamının xüsusi özəlliyi ondan ibarətdir ki, bəzi hüquq-müdafiə təşkilatlarının "siyasi məhbus" kimi qələmə verdiyi şəxslər də bu Sərəncamdan yararlanıblar. O cür siyahılarda olan təxminən 50 nəfərə yaxın şəxs Cənab Prezident tərəfindən əfv olunub. Bu, cəmiyyətdə barışa və birliyə yönəlmiş bir mesaj kimi qiymətləndirilməlidir.

**GÜLYANƏ**

# "Prezident idarəçilikdə qanunları və humanizmi üstün tutur"



"Normal düşüncəyə malik olan hər bir insan Azərbaycan Prezidenti İlham Əliyevin "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması" haqqında imzaladığı sərəncamı alqışlamalıdır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. Əfv sərəncamlarının Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründən verilməyə başlanıldığını deyən deputat söyləyib ki, bu sərəncamlar əsasında yüzlərlə ailələr sevinib, əzizlərinə qovuşub.

Son sərəncamın 431 nəfər şamil edildiyini xatırladan E.Məmmədov söyləyib ki, bu tərkibdə müxtəlif məsələlər üzrə məhkum olunan insanlar bayram ərəfəsində öz azadlıqlarına qovuşdular: "Azərbaycan dövləti öz qanunları ilə idarə olunur, Prezident İlham Əliyev də ölkə qanunların istinad edərək humanistliyi, insanpərvərliyi, hüququ üstün tutaraq dövlətimizi idarə edir, vətəndaşlarımızın qayğısına qalır".

# "Paşinyanın gedişi Sarkisyan qədər uzun çəkməyəcək"



"Ermənistanda vətəndaş müharibəsi başlasa Dağlıq Qarabağda qarışıqlıq yaratmaqda ən çox Paşinyan maraqlı olacaq ki, əlində bəhanə olsun və guya milli maraqlar naminə camaatı sakitləşdirsin. Amma bir məsələ də var: Aprel döyüşlərindən sonra ermənilərin gözü əməllicə qorxub. Anlayırlar ki, Azərbaycanla bu variantlar keçməz, nəticə acı ola bilər". Bunu SİA-ya açıqlamasında millət vəkili Elşən Musayev deyib.

Deputatın sözlərinə görə, aprel döyüşlərində ordumuz erməni separatçılarına elə dağ çəkib ki, çox güman hələ 10 illər boyunca həmin döyüşdəki itkilər, aldıqları yaralar yadlarından çıxmayacaq: "Ona görə də sərhəddə nəsə təxribat olsa bu Ermənistan üçün ikiqat təhlükə hesab oluna bilər. Paşinyan da bunu anlayır və hətta imitasiya xətrinə də olsa belə risk etməyəcək. Amma bir fikri bölüşüm: Ermənistanda xaos dərinləşsə Paşinyanın gedişi Sarkisyan qədər uzun çəkməyəcək. Uzağı 4-5 saata işi bitirəcəklər. Çünki qeyri-adi qarışıqlıq yaranacaq və bu dəfə hakimiyyət iddiasını artıq bir deyil, bir neçə qüvvə ortalığa qoyacaq. Yəni, başları tam özlərinə qarışacaq. Ona görə də narahat olmağa dəyməz. Azərbaycanın milli ordusu bütün təxribatların qarşısını almağa qadirdir və hər şey nəzarətdədir".

# Tarixi abidələrimizin yenidənqurma və abadlaşdırma işləri davam etdirilir

*Dövlət başçısının Sərəncamı ilə V-VI əsrlərə aid “Çıraqqala” abidəsində möhkəmləndirmə və bərpa-konservasiya işləri görüləcək*

***Dövlət tərəfindən, bütün sahələrə olduğu kimi, xüsusi tarixi əhəmiyyət daşıyan nümunələrə, qalalara, istehkamlara, məbədlərə, təbii qoruqlara diqqət və qayğı artıb. Ölkə ərazisində yerləşən bir sıra abidələrdə, Bakı şəhərində “Şirvanşahlar Saray Kompleksi”, “Məhəmməd” məscidi, “Kiçik Karvansaray”, “Bazar meydanı”, “Məktəb-məscid”, Şəki rayonunda “Şəki Xan Sarayı”, qala divarları, “Kiş” Alban məbədi, “Aşağı Karvansaray”, “Şəkixanovların evi”, Quba rayonunun Xınalıq kəndində “Əbu-Müslüm” və “Xıdır Nəbi” məscidləri, Şərur rayonunda “Qudi-Xatun” türbələri, Babək rayonunda “Əshab-ül-Kəhf” Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksi, Gəncə şəhərində Nizami Gəncəvi Məqbərəsi, Hacıqabul rayonunda “Pir Hüseyn” Xanəgahı və digər mühüm tarixi-memarlıq əhəmiyyəti olan abidələrdə bərpa-konservasiya işləri aparılıb.***



Görülən işlər tarixin daş yaddaşı olan abidələrin nəsillərdən-nəsillərə ötürülməsində əhəmiyyətlidir. “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi barədə dövlət başçısının Sərəncamı bu sahədə həyata keçirilən tədbirlərin davamı oldu. Dövlət Proqramına əsasən, milli-mədəni irsin qorunması istiqamətində aparılan islahatların davamı olaraq, daşınmaz tarix və mədəniyyət abidələrinin, tarixi ərazilərin, tarix və daşınmaz mədəni irsin bərpası, öyrənilməsi, təbliği və inkişafı üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilib.

Bu gün Azərbaycanda 28 tarixi qoruq var ki, onların 14-ü tarixi-mədəniyyət qoruğu, 8-i tarixi-memarlıq, 2-si tarixi-bədii qoruqdur. Təkcə Yanardağ həm tarixi-mədəniyyət, həm də təbiət qoruğu olaraq fəaliyyət göstərir. Qobustan Dövlət Tarix-Bədii Qoruğu, Nardaran Tarix-Mədəniyyət qoruğu, Keşikçidağ Dövlət Tarix-Mədəniyyət Qoruğu, Lahıc Tarix-Mədəniyyət Qoruğu, “Çıraqqala” Tarixi-Memarlıq Qoruğu, “Şabran şəhəri” Tarixi Qoruğu, “Avey” Dövlət Tarix-Mədəniyyət Qoruğu və s. dövlət səviyyəsində qorunur və mühafizə olunur. Qoruqların fəaliyyəti müasir tələblər səviyyəsində təşkil edilir. Ziyarətçilərin qoruqlara rahatlıqla ziyarət etmələri üçün müvafiq infrastrukturun yaradılmasından tutmuş, elmi tədqiqatların aparılmasına qədər ən müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilir. Qoruqların bir qismindən turizm məqsədləri üçün istifadə edilir.

Son illərdə Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə ölkə ərazində yerləşən bir çox abidələrin qorunması təmin edilib, əraziləri abadlaşdırılıb və yeni turizm marşrutları müəyyən olunub. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir. Görülən işlərin davamı olaraq, dövlət başçısı 2018-ci il 3 oktyabr tarixində “Basqal” Dövlət Tarix-Mədəniyyət Qoruğu haqqında Sərəncam imzalamışdır. Bu günlərdə isə Cənab Prezidentin Sərəncamı ilə daha bir abidənin Şabran rayonunun ərazisində yerləşən, V-VI əsrlərə aid “Çıraqqala” abidəsində möhkəmləndirmə və bərpa-konservasiya işləri görüləcək. Bu məqsədlə, dövlət büdcəsindən 2,0 (iki) milyon manat Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ayrılıb.

Şabranın rəmzi hesab olunan “Çıraqqala” Azərbaycanın ən qədim tarixi mədəniyyət abidələrindən biridir. Qala rayonun 20-25 kilometrliyində, Çanaqqaya adlanan sıldırım qayanın zirvəsində qərar tutub. “Çıraqqala”nın adının yaranması da çox maraqlıdır. Qalanın qərar tutduğu sıldırım qaya el arasında “Çıraqqaya” adlanır. Görünür, hələ qalasədd tikilməmişdən öncə, adamlar düşmən gəlişini bu qalanın başında tonqal qalamaqla xəbər verirlərmiş. Sonralar elə bu məqsədlə həmin qaya başında möhtəşəm qala tikilmiş və onun indi salamat qalan ən uca bürcündə tonqal qalanarmış. “Çıraqqala” ərazinin ən hündür dağ zirvəsindəki nəhəng qaya üzərində tikilmiş müdafiə xarakterli qaladır. Gilgilçay səddinin baş qarovulxanası olub. Qalanın V-VI əsrlərdə Sasanilər dövründə tikildiyi və XVIII əsrədək istifadə edildiyi ehtimal olunur. Adından göründüyü kimi, qala müdafiə məqsədi ilə kəşfiyyat xarakterli tikilidir. Qala, əsasən, düşmən ordularının gəlişi və digər məlumatları tonqal vasitəsi ilə Azərbaycanın digər qalalarına və məntəqələrinə çatdırırdı. “Çıraqqala”, əsasən, Dərbənd qalasından tüstü ilə verilən məlumatı qəbul edirmiş. Bundan əlavə, qalanın dənizə və digər yerlərə gizli yeraltı yolları mövcuddur. “Çıraqqala” təkcə tarixi, yaşı ilə deyil, həm də qoynunda şəfa qaynağı olan bulaqları ilə məşhurdur.

Göründüyü kimi, ölkə ərazisində olan qoruqlarda, tarixi ərazilərdə dövlət tərəfindən genişmiqyaslı bərpa-konservasiya, elmi-tədqiqat, yenidənqurma və abadlaşdırma işləri aparılıb və bu iş bu gün də davam etdirilməkdədir. Əsrlərin sınağından keçmiş, təbii təsirlərə məruz qalmış və nəticədə, qəza vəziyyətinə düşmüş tarix və mədəniyyət abidələrinin əksəriyyətində təxirəsalınmaz konservasiya və bərpa işləri aparılır.

***Zümrüd BAYRAMOVA***

# BMT: İstanbulun əhalisi 131 ölkəni üstələyir



Birləşmiş Millətlər Təşkilatının (BMT) Əhali Fondunun hesabatında deyilir ki, Türkiyənin ən böyük şəhəri olan İstanbulda yaşayanların sayı ayrı-ayrılıqda götürüldükdə dünyanın 131 ölkəsinin əhalisinin sayından çoxdur. AZƏRTAC təşkilatın hesabatına istinadla xəbər verir ki, 15 milyondan çox əhalisi olan İstanbul bu göstərici üzrə 131 ölkədən, o cümlədən Belçika (11,5 milyon nəfər), (Yunanıstan 11,1 milyon nəfər), Avstriya (8,8 milyon nəfər), İsveçrə (8,5 milyon nəfər) və Bolqarıstandan (7 milyon nəfər) irəlidədir. 2018-ci ildə Türkiyənin əhalisi 82 milyonu ötüb və bunun da 18,4 faizi İstanbulun payına düşür. Türkiyə Statistika İdarəsinin məlumatına görə, bu meqapolisin sakinlərinin sayı sürətlə artmaqdadır və son 5 ildə burada əhalinin sayı 907,257 nəfər çoxalıb.

# Müharibə əlilləri və onlara bərabər tutulanlar üçün bu il əlavə 400-dən çox avtomobil alınıb veriləcək

***Prezident İlham Əliyevin bu gün imzaladığı “Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olmuş, Çernobıl AES-də qəza nəticələrini aradan qaldırmaqda iştirak edib əlilliyi olmuş şəxslərin, II Dünya müharibəsi əlillərinin və onlara bərabər tutulanların xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillə təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında” Sərəncam əhalinin, xüsusilə həssas qrupların rifah halının yüksəldilməsi sahəsində növbəti mühüm addımdır. Sərəncamda həmin kateqoriyalardan olan vətəndaşların xüsusi nəqliyyat almaq üçün tibbi göstərişlər üzrə avtomobillərlə təminatının gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulan Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 5 milyon manat ayrılması tapşırılıb.***



Bunun nəticəsində bu il həmin kateqoriyadan olanlara verilməsi üçün əlavə olaraq 400-dən artıq avtomobilin alınmasına imkan verəcək. Beləliklə, bu il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müharibə əlillərinə və onlara bərabər tutulanlara nəzərdə tutulduğundan (180 avtomobil) üç dəfədən çox olmaqla 600-ədək avtomobil təqdim olunacaq.

Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, əsasında insan amili dayanan sosial siyasətin ildən-ilə gücləndiyi ölkəmizdə bütün sosial proqramlar uğurla davam etdirilir və getdikcə genişləndirilir. Belə proqramlardan biri də Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi və 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, habelə hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olmuş şəxslərin, Böyük Vətən müharibəsi əlillərinin, Çernobıl əlillərinin dövlət hesabına minik avtomobilləri ilə təmin olunmasıdır. Proqramın davamı olaraq, 2018-ci ildə həmin insanlara daha 265 avtomobil verilməklə, ötən dövrdə təqdim olunan minik avtomobillərinin sayı 6 min 144-ə çatıb.

Hazırda dövlət büdcəsi hesabına minik avtomobili ilə təmin olunmaq üçün növbədə dayanan əlilliyi olan vətəndaşların sayı 997 nəfərdir ki, cari il ərzində onlardan da artıq 600-ə yaxın şəxsin avtomobillə təminatı həyata keçiriləcək.

Sərəncam dövlət başçısının həssas qruplardan olan vətəndaşların, o cümlədən müharibə əlillərinin və şəhid ailələrinin sosial müdafiəsinə xüsusi qayğısının növbəti ifadəsidir. Qeyd edək ki, 2018-ci ildə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə nəzərdə tutulduğundan 3 dəfədən çox olmaqla 626 mənzil, indiyədək isə 6 min 654 mənzil təqdim edilib. Dövlət başçısının tapşırığı ilə cari ildə həmin kateqoriyadan olan vətəndaşlara azı 800 mənzil veriləcək.

Eyni zamanda, Prezident İlham Əliyevin imzaladığı sənədlərlə Prezidentin aylıq təqaüdü şəhid ailələri üçün 242 manatdan 300 manata, müharibə əlilləri - I qrup əlilliyi olanlar üçün 182 manatdan 250 manata, II qrup əlilliyi olanlar üçün 158 manatdan 230 manata, III qrup əlilliyi olanlar üçün 121 manatdan 210 manata çatdırılıb. Eyni zamanda, müharibə əlillərinin müavinətləri əhəmiyyətli şəkildə artırılmaqla, I qrup əlilliyi olanlara qulluq edənlər üçün 50 manat məbləğində Prezidentin aylıq təqaüdü təsis edilib.

Əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara Prezidentin aylıq təqaüdü əmək pensiyası almaq hüququ olan I qrup əlillərə şamil olunmaqla bu təqaüdün məbləği də 100 manata çatdırılıb.

Həmçinin 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla) Prezidentin təqaüdünün məbləği də artırılaraq 150 manat müəyyən olunub.

Ümumilikdə, bu ilin ötən dövründə Prezident İlham Əliyevin imzaladığı sənədlər ölkəmizdə minimum əməkhaqqının və minimum pensiyanın, sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin, həmçinin tələbələrin təqaüdlərinin, məcburi köçkünlərə verilən müavinətlərin, incəsənət işçilərinin əməkhaqqının əhəmiyyətli dərəcədə artırılmasına, şəhid ailələri üçün birdəfəlik ödəmənin (11 min manat) verilməsi prosesinin əhatə dairəsinin genişlənməsinə, problemli kreditlərin həllinə, çoxmənzilli binaların sənədləşdirilməsinə xidmət edib və həmin sosial paket təqribən 3 milyona yaxın vətəndaşı əhatə edərək onların rifahında müsbət dəyişikliklərə imkan verib.

# “Məhbuslar bu şansdan düzgün istifadə etməlidirlər”



“Prezident İlham Əliyevin siyasətinin təməlində humanistlik dayanır ki, martın 16-da imzalanan Əfv Sərəncamı bunun bariz göstəricisidir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib.

Deputat söyləyib, Novruz bayramı ərəfəsində belə bir sərəncamın verilməsi məhkumluq həyatı yaşayan insanların öz evlərinə qayıtması, onlara cəmiyyətə özünü təqdim etmək imkanları yaradır: “Ölkə başçısının bu addımı təqdirəlayiqdir və xalqımız tərəfindən yüksək səviyyədə dəyərləndirilir, yüksək sevincə səbəb olur”. A.Badamov söyləyib ki, sərəncamda əsas məqam onun siyasi baxışından asılı olmayaraq hər kəsə şamil edilməsidir: “Bu da təbii ki, Azərbaycan dövlətinin, ölkə başçısının siyasətində demokratiyanın olduğunu göstərir”. Deputat qeyd edib ki, Əfv Sərəncamı Prezident və dövlət tərəfindən cinayət törədən insanlara özünü doğrultmaq üçün verilən şansdır: “Onlar bu şanslarından düzgün istifadə etməlidirlər”.

# İşğalçının darmadağın olan planları

***ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətində son zamanlar bir canlanma, bir tərpəniş hiss olunmaqdadır və bunun təsadüfi olmadığı da gün kimi aydındır. Səmərəli müzakirələr üçün əlverişli ab-havanı dəstəkləməyin vacibliyini vurğulayan, münaqişənin dinc yolla həlli üçün tərəflərə kömək etmək məramına tam sadiq olduqlarını diqqətə çatdıran həmsədrlərin, "Qarabağ ətrafındakı işğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır" bəyənatları ölkə başçımızın rəhbərliyi ilə aparılan düzgün siyasətin və uğurlu diplomatiyanın məntiqi nəticəsidir.***

Ermənistana və beynəlxalq vasitəçilərə Azərbaycanın mövqeyi bəllidir. Ələlxüsus, Ermənistan tərəfi bu mövqeyi çox yaxşı bilir. Amma işğalçı ölkədə adekvat tədbirlərin görülməsinin, məsələnin həllinə yönələcək siyasət aparılmasının vacibliyini dərk edəcək bir hakimiyyət formalaşa bilmir ki, bilmir. İndi Paşinyanın və onun hakimiyyətinin də münaqişənin həllinə pəl vurmaq üçün dəridən- qabıqdan çıxması, məhz bu səbəbdəndir.

Yeni Ermənistan, yeni hakimiyyət kimi sırımağa çalışdıqları hakimiyyət çevrilişləri qəhrəmanları, baş nazir kürsüsünü ələ keçirən nümayişçidən tutmuş ən sıravi hakimiyyət nümayəndəsinə qədər hər biri məsələnin həllinin uzadılmasının indi ermənilər üçün fəsadlarını dərk etmək məcburiyyətindədir. Dərk etmək məcburiyyətindədirlər ki, münaqişənin həllinin uzanması təhlükəsizliyin təminatına imkan vermir, terrorçuluğa qarşı mübarizəyə mane olur, iqtisadi inkişafa, əlaqələrə və əməkdaşlığa əngəl törədir. Əslində, işğalçı tərəfi bunu dərk etməyə məcbur edən, daha dəqiq desək, işğalçılara bunu dərk etdirən elə ölkə başçımızın rəhbərliyi ilə Azərbaycanın apardığı məqsədyönlü, düşünülmüş siyasət və uğurlu diplomatiyadır.

Dağlıq Qarabağ məsələsinə görə, işğalçılıq siyasəti yürütdüyünə görə, Ermənistanın özünü çətin vəziyyətə, hətta acınacaqlı duruma saldığı göz qabağındadır. Hadisələrin gedişi də təsdiq edir ki, bu durum, bu vəziyyət get-gedə daha da ağırlaşmaqdadır. Son bir ildə keçirilən nümayişlər, hakimiyyət çevrilişləri, hansısa avantüristin pafoslu çıxışları belə ermənilərin dərdinə çarə deyildi və bütün Ermənistan, hamıdan əvvəl, bunun şahidi oldu. Onun da şahidi oldu ki, Paşinyan nə siyasətçidir, nə də sehrbaz və onun özü də batmaqda olan bir işğalçı dövləti dirçəltmək iqtidarında ola bilməz. Çünki Ermənistanın problemi təkcə Serj Sarkisyan deyildi və bu problemlərin kökündə Dağlıq Qarabağ münaqişəsi durur ki, bunu, artıq hər bir erməninin etiraf etməkdən başqa çarəsi qalmır. Heç şübhəsiz ki, işğalçıların belə bir çarəsiz vəziyyəti, regionda küncə qısılmış duruma düşmələri, marginallaşmaları ölkəmizin düzgün strategiya seçməsi deməkdir və Azərbaycanın qələbəsidir.

İşğalçılıq siyasəti yürüdən Ermənistan, başda S.Sarkisyan olmaqla, bunun acı nəticələri ilə qarşılaşmalı oldu. Ermənilərin hər zaman xarici qüvvələrin təsiri altında qaldıqları səbəbindən, müstəqil ola bilmədikləri təkzibedilməzdir və indi bütün layihələrdən kənarda qalan işğalçılar bunu daha yaxşı dərk edirlər. Bunu səfalət içərisində yaşayan ən sıravi ermənidən tutmuş ölkəsini rüsvayçı, rəzil durumdan xilas edə bilməyən baş nazirə qədər hər kəs daha yaxşı başa düşür. Məsələ burasındadır ki, erməni xalqı da, Ermənistan dövləti də sonuncu dəfə bir şans əldə edə bilərdi və "narıncı inqilablar"dan sonra məkrli niyyətlərə, işğalçılıq siyasətinə son qoyulmaqla doğru yol, münaqişənin sülh yolu ilə həlli, torpaqlarımızın qaytarılması seçilə bilərdi ki, bu da, ümumilikdə, Ermənistanın düşdüyü bataqlıqdan xilas olması demək idi. Azərbaycan torpaqlarını işğaldan azad etməklə, Ermənistan regional iqtisadi layihələrə cəlb oluna, bununla da, iqtisadi böhrandan xilas ola bilərdi. Bu durum Ermənistanda indi donmuş investisiya axınına da öz müsbət təsirini göstərə bilərdi ki, nəticədə, bütün bunlar, ölkənin məhv olmasının qarşısının alınması deməkdir.

Hələ neçə illər əvvəl ölkənin ilk prezidenti, Ermənistan Milli Konqresi Partiyasının sədri Levon Ter-Petrosyan tərəfindən Ermənistanın düşdüyü vəziyyətin ağırlığı etiraf olunmuşdu və o, çıxış yolu kimi Dağlıq Qarabağ ətrafındakı ərazilərin Azərbaycana qaytarılmalı olduğunu demişdi. Levon Ter-Petrosyan etiraf etmişdi ki, torpaqlar könüllü qaytarılmazsa onsuz da bu torpaqlar sanksiyalarla alınacaq və Ermənistanın başqa çıxış yolu yoxdur. Etiraf etmişdi ki, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzadılması Ermənistanı daha da zəiflədəcək.

Ermənistanın Dağlıq Qarabağ münaqişəsində əvvəl-axır güzəştlərə getməli olacağını ifadə edən məşhur məqalənin Ter-Petrosyanın istefa verməyə məcbur edilməsi ilə nəticələndiyi də sirr deyil. Ermənistanın keçmiş prezidenti ölkəsinin 20 il, 30 il status-kvonu qoruyub-saxlamağa imkanı olmadığını da etiraf etmişdi. Etiraf etmişdi ki, iqtisadiyyatını inkişaf etdirməyə, blokadaları və blokadaların doğurduğu maneələri dəf etməyə Ermənistanın resursları kifayət etməyəcək və işğalçı ölkə Azərbaycanla rəqabətə tab gətirə bilməyəcək. Ermənistanın eks-prezidenti, bu mənada, haqlı idi və göründüyü kimi, belə də oldu. Yəni ölkəmizin qələbəsini əvvəlcədən də görmək mümkün idi və bu həqiqətləri etiraf etməkdən başqa, işğalçıların çarəsi yoxdur.

## Diplomatik qələbə artıq təmin edilib və Nikol Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevlə görüşə şəksiz-şübhəsiz məğlub durumda gedəcək

ATƏT-in Minsk Qrupunun Ermənistana, "öz müqəddəratını təyinetmə prinsipi ərazi bütövlüyünün pozulması hesabına baş verə bilməz" deyə xəbərdarlıq etməsi Dağlıq Qarabağ masasında işğalçı ölkəni fakt qarşısında qoydu. Bu fakt isə, ölkə başçımızın ərazi bütövlüyümüzün bərpası istiqamətində prinsipial mövqeyinin bəhrəsi deməkdir. Bu, həm də deməkdir ki, dövlətimizin başçısı planlaşdırılan görüş öncəsi diplomatik qələbəni artıq təmin edib və Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevlə, görüşə şəksiz-şübhəsiz, artıq məğlub gedəcək.

Həmsədrlər özləri də çox yaxşı başa düşürlər ki, Paşinyan Dağlıq Qarabağın adından danışmaq hüququna malik olmadığını bəhanə etdiyi halda, öz oğlunu işğal edilmiş Azərbaycan torpaqlarına hərbi xidmətə göndərirsə, deməli, baş nazirin dedikləri tamamilə yersiz və uyğunsuzdur. Başa düşürlər ki, erməni baş nazir bütün bunları danışıqlar prosesini pozmaq, mövcud status-kvonu davam etdirmək üçün uydurur. Lakin artıq Paşinyanın bu uydurmaları heç bir işə yaramır və həmsədrlər işğalçının şərtlərini rədd etməklə, arzularını da ürəyində qoydular desək, yanılmarıq. Çünki bundan sonra Nikolun daha hansısa bəhanələr uyduracağı heç inandırıcı görünmür və görünən odur ki, o, indi fakt qarşısında, eləcə də çıxışmaz vəziyyətdədir.

Erməni baş nazirinin hazırkı çıxılmaz vəziyyəti heç də birdən-birə ortaya çıxmadı və təsadüfi də deyil. Paşinyanın bu çıxılmaz durumu, yaxud şok vəziyyəti Azərbaycan Prezidenti İlham Əliyevin diplomatik qələbəsidir ki, buna heç kimin zərrə qədər şübhəsi ola bilməz. Çünki məhz ölkə başçımızın diplomatiyası sayəsində, yürütdüyü doğru, düzgün siyasət sayəsində işğalçı ölkənin baş naziri belə bir məğlub duruma düşüb və bunu öz mətbuat səhifələrində erməni cəmiyyəti də etiraf edir.

## Ermənistan tərəfinin bundan sonra "format dəyişikliyi" tezisi üzərindən çıxış etməsinin qarşısı, birmənalı tərzdə alındı

Ölkə başçımızın Putinin dəvəti ilə Soçiyə səfərinin ardınca Rusiya prezidentinin Bakıya səfəri Ermənistan tərəfinin yuxusunu ərşə çəkməyə bilməzdi. Çünki ermənilər arxalarını itirdiklərini, bunun ağır nəticələr verəcəyini yaxşı başa düşürdülər. Ermənistanın üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında ağır məğlubiyyətə uğraması da təsadüfi deyildi. Bu, əslində, Ermənistanın məğlubiyyəti ilə yanaşı, Azərbaycanın, yürüdülən düzgün siyasət, uğurlu diplomatik fəaliyyət sayəsində, xüsusən, İlham Əliyevin qələbəsi deməkdir. Martın 5-də Prezident İlham Əliyev ATƏT-in



fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakı Bakıda qəbul etdiyi zaman Ermənistan tərəfindən substantiv danışıqların aparılması üçün hər hansı ciddi niyyətin olmadığını vurğulaması, Dağlıq Qarabağ münaqişəsinin həllindən məsuliyyətli olan qurumun rəhbərinə Azərbaycanın prinsipial mövqeyi idi.

Avropa Komissiyasının Avropa Siyasəti, Qonşuluq və Genişlənmə üzrə komissarı Yohannes Hanla martın 6-da baş tutan görüşdə Nikol Paşinyan münaqişənin həlli üçün "Dağlıq Qarabağ probleminin həllinin incəlikləri və metodları barədə Azərbaycan Prezidenti ilə danışmamışıq" deyən baş nazir, sözsüz ki, yeni metodlar axtarışı bəhanəsi ilə vaxt qazanmaq, məsələni uzatmaq niyyətində idi. "Bizim növbəti görüşümüz danışıqlar formatının müzakirəsinə həsr ediləcək" deyən baş nazir, problemin həlli üçün, ilk növbədə, effektiv format yaradılmalı olduğunu orataya atdısa da, bunun heç bir nəticəsi olmadı. Erməni baş nazirin nə formatın dəyişdirilməsi, nə də Dağlıq Qarabağın burada iştirakının təmin edilməsi barədə bəhanələri qəbul edilmədi. Daha dəqiq desək, Ermənistanın baş naziri Avropadan dəstək gözlədiyi halda, ona diplomatik dillə də olsa, haqq qazandırılacağını güman etdiyi halda, bunun əksi ilə qarşılaşmalı oldu. Yohannes Han açıq şəkildə bəyan etdi ki, ən yaxşısı, indiki formatı saxlamaqdır və yenilik xətrinə yeni nəsə yaratmağa ehtiyac yoxdur.

Beləliklə, Paşinyan, "format dəyişikliyi" tezisi alt-üst olmuş şəkildə Azərbaycan Prezidenti ilə görüşə getmək məcburiyyətindədir. Daha dəqiq desək, işğalçıların planları darmadağın oldu və işğalçı dövlətin baş naziri bəhanələrdən əli üzülmüş halda, görüşə getməli olacaq. İki ölkənin liderlərinin ilk rəsmi görüşünün bu formatda, yəni əvvəlki qaydada keçiriləcəyi Ermənistan tərəfinin bundan sonra "format dəyişikliyi" tezisi üzərindən çıxış etməsinin qarşısını, birmənalı tərzdə alacaq. Yəni ermənilərin, erməni baş nazirinin və onun hakimiyyətinin bundan sonra bəhanə axtarmasına yol verilməyəcək. Bu, özü-özlüyündə, Azərbaycanın işğalçı ölkə üzərində növbəti mükəmməl diplomatik qələbəsi və təkzibedilməz uğurudur.

***İnam HACIYEV***

# 19 Mart Azərbaycan Respublikası miqrasiya orqanları işçilərinin peşə bayramı günüdür

***Dövlət miqrasiya siyasəti milli maraqların və milli təhlükəsizliyin qorunmasına xidmət edir. Qloballaşan XXI əsrdə Azərbaycan öz müstəqillik salnaməsinə tarixi uğurlar yazmaqda davam edir. Azərbaycanın bu tarixi uğurları Azərbaycan Prezidenti İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin uzaqgörən strateji xəttini çox böyük siyasi ustalıqla dünyanın və zamanın sərt tələblərinə uyğunlaşdıraraq, davam etdirdiyini və ölkəmizi regionun lider dövlətinə çevirməklə ona böyük şəraf, sosial rifah və tərəqqi gətirdiyini təsdiqləyir. Geostrateji baxımdan, Azərbaycan üçün böyük əhəmiyyət daşıyan nailiyyət özündə ölkənin sabit daxili və xarici siyasətini, sürətli sosial-iqtisadi inkişaf tempini, qloballaşan dünyaya uğurlu inteqrasiyanı, beynəlxalq əməkdaşlığı və tolerantlığı ehtiva edir.***



Bu gün uğurlu inkişaf dövrünü yaşayan Azərbaycanda miqrasiya orqanları işçiləri peşə bayramını qeyd edir. Azərbaycan Prezidenti İlham Əliyevin 2010-cu il 17 mart tarixli Sərəncamı ilə hər il martın 19-u Azərbaycan Respublikası miqrasiya orqanları işçilərinin peşə bayramı günü qeyd olunur. Azərbaycan inkişaf etdikcə, əcnəbi və vətəndaşlığı olmayan şəxslər üçün daha cəlbedici bir regiona çevrilir, ölkəmizə miqrasiya axını ildən-ilə artır. Bu da, öz növbəsində, ölkənin inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsini, onun əsasında miqrasiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini və inkişaf etdirilməsini, dövlət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsini və bu sahədə beynəlxalq əməkdaşlığı zəruri etmişdir.

Nəzərdə tutulan bu zəruri məsələlərin həlli və ölkəmizdə dünya təcrübəsinə söykənən vahid miqrasiya siyasətinin formalaşmasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə hazırlanan və dövlət başçısının 2004-cü ildə təsdiq etdiyi "Dövlət Miqrasiya Siyasəti Konsepsiyası" çox mühüm rol oynamışdır. Hökumət qurumları qarşısında əsas məqsədləri müəyyən edən "Dövlət Miqrasiya Siyasəti Konsepsiyası"nın gerçəkləşdirilməsi və qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün hazırlanmış "Azərbaycan Respublikasının 2006-2008-ci illər üçün Dövlət Miqrasiya Proqramı" isə prezident İlham Əliyevin 25 iyul 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Proqramda əsas fəaliyyət istiqamətləri olaraq, miqrasiya sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsi, bu sahədə dövlət tərəfindən tənzimlənmənin səmərəliliyinin artırılması, aidiyyəti dövlət orqanlarının miqrasiya sahəsində fəaliyyətlərinin əlaqələndirilməsi, mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi, əmək miqrasiyası sahəsində kvotaların tətbiqi, qeyri-qanuni miqrasiyanın qarşısının alınması üzrə kompleks tədbirlərin həyata keçirilməsi və eləcə də, digər ölkələrin miqrasiya qurumları və əlaqədar beynəlxalq təşkilatlarla əməkdaşlıq nəzərdə tutulmuşdur. Dövlət Miqrasiya Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi ölkəmizdə miqrasiya üzrə daha təkmil bir sistemin yaradılmasına yönəlmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 mart 2007-ci il tarixdə imzaladığı Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında Fərmanı isə miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, idarəetmə sisteminin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədinə xidmət etmişdir. Yarandığı zamandan idarəetmənin təkmilləşdirilməsi, peşə hazırlığının yüksəldilməsi, xidməti intizamın möhkəmləndirilməsi, normativ-hüquqi və maddi-texniki bazanın yaradılması istiqamətində əməli tədbirlər həyata keçirilib. Xalqımıza, dövlətimizə, dövlətçiliyimizə sədaqət və fədakarlıqla xidmət edən Dövlət Miqrasiya Xidmətinin əməkdaşları qarşıya qoyulmuş tapşırıqları hər zaman uğurla yerinə yetiriblər. Ölkəmizdə keçirilən mötəbər beynəlxalq idman yarışları - IV İslam Həmrəyliyi Oyunları, "Formula-1 Azərbaycan Qran-Pri"si, Bakı şəhərində və Göygöl rayonunda keçirilən voleybol üzrə qadınlar arasında Avropa çempionatının final mərhələsi və digər beynəlxalq tədbirlərdə xidmətin qarşısına qoyulmuş tapşırıqların icrası tam təmin edilib. Ölkəmizdə keçiriləcək beynəlxalq tədbirlərlə bağlı da DMX-nın qarşısında mühüm tapşırıqlar qoyulub. Şübhə yoxdur ki, Xidmət bu dəfə də üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək.

Ali diqqət və qayğı, eyni zamanda, ciddi nəzarət, tələbkarlıq sayəsində DMX-nın qarşıya qoyulan, qanunvericiliklə üzərinə düşən bütün vəzifələrin öhdəsindən gələ bilir.

Bu gün DMX-nın inkişafı üçün qəbul edilən qərarlar, göstərilən diqqət və qayğı şəxsi heyət tərəfindən həmişə dərin minnətdarlıq və ruh yüksəkliyi ilə qarşılanır. Ölkə rəhbərinin xidmətin fəaliyyətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, verdiyi tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla miqrasiya orqanları işçilərini daha böyük uğurlara ruhlandırır. Məhz dövlətin əvəzsiz dəstəyi sayəsində DMX-nın aparatının, regional miqrasiya idarələrinin inzibati binalarının tikintisi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, xidmət şəraiti beynəlxalq standartlara uyğun təchiz edilib.

DMX-nın əməkdaşları bundan sonra da müstəqilliyin, sabitliyin, təhlükəsizliyin, daxili əmək bazarının qorunmasının və xidmətə müraciət edənlərin məmnunluğunun, ölkəmizə təşrif buyuran əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi işinin keşiyində ayıq-sayıq dayanır. Səy və bacarıqlarını əsirgəməyərək, peşəkarlıqlarını daim artırırlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bu gün "İlaxır Çərşənbə"dir

***Tarixdən boylanan zamanın daşlaşmış yaddaşında olan təbiətdən gələn yeni bir günün - Novruz bayramının ərəfəsindəyik. İlin ən gözəl zamanının... Hər il müsəlman dünyasının bir qisminin əsasən, Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Gürcüstan, Tacikistan İran və Əfqanıstan əhalisinin böyük həvəslə qarşıladığı və yola saldığı Novruz bayramı xalqın tarixi kökünü, adət-ənənələrini özündə yaşadan gündür. Əsrlərdir qeyd olunan bu bayram öz gözəlliyi, bəşəriliyi ilə seçilir və insanların milli-mənəvi dəyərlərimizə olan sevgisini və bağlılığını özündə ehtiva edir.***



Novruz sözünün etimologiyasına diqqət etsək, görərik ki, bu sözün həqiqi mənası yeni günün başlanması deməkdir. Dörd ünsürdən yaranmış İNSANlar Novruz bayramına qədər dörd Çərşənbəni qeyd edir. Novruzaqədərki yaxın 4 həftənin 2-ci günlərini-çərşənbələri ulularımız Su, Od, Yel və Torpaq Çərşənbəsi adlandırmışlar. Rəmzi məna daşıyan çərşənbələri ulu babalarımız bayram hesab etmişdilər. Bu dörd çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır.

Qeyd edilən çərşənbələr sırasında bu gün qeyd etdiyimiz sonuncu Çərşənbə Torpaq Çərşənbəsidir. Xalq arasında torpaq çərşənbəsi "İlaxır Çərşənbə", "Yer Çərşənbəsi", "Çərşənbə-Suri" kimi də adlanır. Torpaq Çərşənbəsində torpağa istilik gəlir və bütün təbiət oyanmağa başlayır, otlar cücərir, ağaclar tumurcuqlayır ki, bu da baharın gəlişindən xəbər verir. Torpaq Çərşənbəsi torpağın oyanmasının mifik kökləri etibarilə dirilmə, canlanma anlayışı ilə əlaqədardır. Dörd ünsürdən sonuncunun oyanması ilə Sel, Atəş, Yel və Torpaq daha böyük güc alır. İnsanlar yoxsulluq və qıtlıqdan, çətinlik və məhrumiyyətdən xilas olurlar. Axır Çərşənbə mərasim, ayin, etiqad, oyun və şənliklərlə daha çox zəngindir. Bu Çərşənbədə əvvəlki çərşənbələrdə icra olunan bütün ayinlər kütləvi xalq şənlikləri ilə qeyd olunur. Şənliklər sübh tezdən suya tapınma ayini ilə başlanır. Adamlar su üstünə çıxıb, su üstündən atdanaraq, dərdini, arzusunu suya danışıb, ondan imdad diləyirlər. Gün ərzində müxtəlif ayinlər keçirilir. Axır Çərşənbənin axşamı şənliklər daha da güclənir. İnsanlar tonqalın üstündən atılıb ağrı-acılarının oda tökülməsini arzu edirlər: "ağırlığım, qadambalam tonqalda yansın". Burada məqsəd qışdan qalan dərdin, ağrı-acının adamın canından çıxması, insanın sağlam ruhla, saf qəlblə bayrama qovuşmaq istəyidir.

Qulaq falına çıxmaq, qapılara kisə və papaq atmaq bu bayramın tərkib hissələridir. Küsülüləri barışdırmaq, xəstələrə baş çəkmək, körpələrə yeni libas almaq da bu bayrama aid xüsusiyyətlərdəndir. Torpaq Çərşənbəsinə həm də Niyyət, Dilək Çərşənbəsi deyilir. İnanca görə, həmin gün ürəkdə tutulan xoş diləklərin hamısı hasil olur. Həmin gün mütləq xoş sözlər danışılmalıdır. Axı kimsə qulaq falına çıxıb, qapıya gələ bilər. Çərşənbə axşamı ailədə könül açan sözlər danışar, dava-dalaş etməzlər ki, qulaq falına çıxan şəxs xoşagəlməz ifadələr eşitməsin və evlərinə şən əhval-ruhiyyə ilə qayıtsın. Süfrənin əsas bəzəyi al-əlvan boyadılmış şadlıq rəmzi olan yumurta bir də baharın gəlişini əks etdirən Səmənidir.

Novruz bayramı azərbaycanlıları Vətənə, ata-baba yurdları Azərbaycana, milli köklərə daha sıx bağlayır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə milli-mənəvi dəyərlər, mütərəqqi adət-ənənələr cəmiyyətdə daha möhkəm əsaslarla intişar tapır, bu sıradan da xalqın milli bayramı olan Novruz yüksək səviyyədə qeyd edilir.

Baharın gəlişini müjdələyən, xalqımızın qədim tarixə malik milli bayramı olan Novruzun Son Çərşənbəsi - "İlaxır Çərşənbə" bu gün də böyük ruh yüksəkliyi ilə qarşılanır.

***ZÜMRÜD***

# Çinin "Vitwo" jurnalının Azərbaycana həsr edilən xüsusi buraxılışı çap olunub




Çində ingilis və Çin dillərində nəşr edilən "Vitwo" jurnalının Azərbaycana həsr edilən xüsusi buraxılışı çap olunub. AZƏRTAC xəbər verir ki, ölkəmizin Çindəki səfirliyinin təqdim etdiyi materiallar əsasında hazırlanan "İnvest in Azerbaijan" adlı xüsusi buraxılışda Azərbaycan haqqında ümumi, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində əldə olunan uğurlar, iqtisadiyyatının müxtəlif sahələrində, o cümlədən enerji, nəqliyyat-logistika, kənd təsərrüfatı, infrastruktur, turizm istiqamətlərində investisiya mühiti barədə məlumatlar əksini tapıb.

Nəşrdə iqtisadiyyatın müxtəlif sahələri ilə əlaqədar investisiya imkanları və onun hüquqi aspektlərinə dair ətraflı informasiya verilib. Üç min tirajla çap olunan xüsusi buraxılışın nüsxələri Çinin aidiyyəti dövlət qurumlarına, şirkətlərə, ali təhsil ocaqlarına və tədqiqat mərkəzlərinə, kütləvi informasiya vasitələrinə göndərilib.

# İki ayda dövlət büdcəsinin gəlirləri 3 milyard manatı ötüb



Maliyyə Nazirliyinin təqdim etdiyi operativ məlumatlara əsasən, yanvar-fevral aylarında dövlət büdcəsinin gəlirləri 3 milyard 532,9 milyon manat, xərcləri isə 2 milyard 954,8 milyon manat təşkil edib. Dövlət Statistika Komitəsindən bildirilib ki, büdcənin icrasında 578,1 milyon manatlıq və ya ümumi daxili məhsulun 5 faizi qədər profisit yaranıb.

# İnsan hüquqlarının müdafiəsi aktuallaşır

***İnsan hüquqları və ya insan haqları - "bütün insanların malik olmağa haqqı olduğu əsas hüquqlar və azadlıqlar". İnsan haqlarının əsas məğzi ondan ibarətdir ki, bütün insanlar eyni hüquqa malik olmalıdırlar və bu hüquqlar izahata ehtiyac duyulmadan hər kəsə aid edilir. Hər kəsin doğulduğu andan toxunulmaz, ayrılmaz hüquqları və azadlıqları vardır. Bu hüquq və azadlıqlar şəxsin cəmiyyət və digər şəxslər qarşısında məsuliyyətini və vəzifələrini əhatə edir. Vətəndaşın hüquqları şəxsin müəyyən dövlətə məxsusluğu ilə bağlıdır. Onlar dövlət tərəfindən müdafiə olunur. İnsan hüquqları hakimiyyət üzərində nəzarət vasitəsi kimi insan hüquqları ilə müəyyən olunan azadlıq həddini keçməməli olan dövlətin qeyri-məhdud hakimiyyətinin məhdudlaşdırıcısıdır. İnsan hüquqları institutu məzmun etibarilə müxtəlif, eyni statusa sahib olmayan hüquqları tədqiq edir və qoruyur.***

Lakin mülkiyyət hüququ təbii və əsaslı hüquq olduğu halda, konkret bir həyat tərzi ətrafında birləşməyi təmin edən həmrəylik hüquqlarının mahiyyəti hələ tam aydınlığa qovuşmayıb. Habelə, insan hüquqları institutu mənbə etibarilə, beynəlxalq sənədlərə söykəndiyi kimi, milli qanunvericilik müddəalarına da əsaslanır. İnsan haqları, demək olar ki, dünyanın bütün ölkələri tərəfindən qəbul edilir. Bu məsələnin universallığından çox vaxt bu və ya digər dövlətlərdə insan haqlarından sui-istifadə halları əsas götürülərək, onlara qarşı hərbi və iqtisadi təzyiq göstərmək üçün istifadə edilir. Konstitusiyalarda əsas hüquqların və beynəlxalq razılaşmaların köməyi ilə insan haqları inkarolunmaz bir hüquq kimi qəbul edilmişdir. Beynəlxalq aləmdə insan haqları BMT-nin deklarasiyası ilə qanunilaşdirilmişdir. İnsan haqları çox hallarda bütün insanların eyni haqqa malik olması ideyasına uyğun olaraq aşağıdakı kimi ifadə olunur: "Hər bir insan onun mənsub olduğu irqdən, cinsiyyətdən, dildən, dindən, siyasi və digər baxışlardan, milli və sosial mənşədən, mülkiyyətdən, doğum və başqa hallardan asılı olmayaraq, təmin olunmuş insan haqlarına və azad olmaq hüququna malikdir. ABŞ-ın İstiqlal Bəyannaməsi 4 iyul 1776-cı ildə Kontinental Konqres tərəfindən ratifikasiya olunmuşdur. Qədim xalqlar müasir dövrdəki mövcud universal insan hüquqları konsepsiyasına malik olmamışlar. İnsan hüquqları üzrə müzakirələrin əsl dönüş nöqtəsi Avropa maarifçilik dövründə mövcud olmuş məşhur orta əsr təbii hüquq ənənəsinin bir hissəsi kimi yaranan təbii hüquqlar konsepsiyası olmuşdur. Həmin dövrdə təməli qoyulsa da, insan hüquqlarına dair müasir mübahisələr XX əsrin II yarısında ortaya çıxmışdır. XVII əsr ingilis filosofu Con Lokk öz əsərində təbii hüquqlara yer vermiş və təbii hüquqları "yaşamaq, azadlıq və mülkiyyət (əmlak)" hüquqları kimi müəyyən etmişdir. Lokk iddia edirdi ki, bu əsas hüquqlar ictimai müqavilədə əks etdirilə bilməz. 1689-cu ildə Britaniyada qəbul edilmiş "Hüquqlar haqqında Bill"ə əsasən, dövlət orqanlarının zülmkar hərəkətləri qanunsuz hesab edilməyə başlandı. XVIII əsrdə ABŞ-da (1776) və Fransada (1789) iki böyük inqilab baş verdi və müvafiq olaraq, ABŞ-ın İstiqlal Bəyannaməsi və "İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi qəbul edildi; hər iki sənəd insan hüquqlarını təsbit edirdi. Bundan əlavə, 1776-cı il Virciniya Haqlar Bəyannaməsi bir sıra əsas vətəndaş hüquq və azadlıqlarını nəzərdə tuturdu. Biz bunu sübuta ehtiyacı olmayan bir həqiqət sayırıq ki, bütün insanlar bərabərhüquqlu yaradılıb və Yaradan öz bəndələrinə müəyyən toxunulmaz hüquqlar bəxş edibdir, onların sırasına yaşamaq, azadlıq və səadətə canatma hüququ da daxildir. ABŞ-ın İstiqlal Bəyannaməsi, 1776 1800-cü ildən Birinci Dünya müharibəsinə qədərki dövr İnsan və Vətəndaş Hüquqları Bəyannaməsi Fransa Milli Məclisi tərəfindən 26 avqust 1789-cu ildə təsdiq edilmişdir. XVIII-XIX əsrlərdə Tomas Peyn, Con Stüart Mill və Hegel kimi mütəfəkkirlər universallıq mövzusu ilə əlaqədar müzakirələri genişləndirmişdilər. 1849-cu ildə Henri Devid Toro sonralar insan hüquqları, xüsusilə də, mülki hüquqlar üzrə mütəfəkkirlərə təsir etmiş "Mülki itaətsizlik" əsərində insan hüquqlarından bəhs edirdi. 1867-ci ildə ABŞ Ali Məhkəməsinin hakimi Devid Devis özünün Ex parte Milligan işi üzrə rəyində qeyd edirdi ki, "Qanunun qorunması ilə insan hüquqları təmin edilir." Bir sıra qruplar və hərəkatlar insan hüquqları adına XX əsr ərzində dərin sosial dəyişikliklərə nail ola bilmişdirlər. Qərbi Avropada və Şimali Amerikada həmkarlar ittifaqları işçilərə tətil etmək, minimum əmək şəraitinin yaradılması və uşaq əməyinin qadağan edilməsi və ya tənzimlənməsi hüquqlarını verən qanunlar qəbul edilməsinə səbəb olmuşdular. "Qadın Hüquqlarının Müdafiəsi üzrə Hərəkat" bir çox qadınların səsvermə hüququna nail oldu. Bir çox ölkələrdə milli azadlıq hərəkatı müstəmləkəçiliyə son qoyulmasına müvəffəq oldu. Bun-



1966-cı ildə BMT tərəfindən Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (MSHBP) və İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (İSMHBP) qəbul edilmişdir: hər iki sənəd ÜİHB-də nəzərdə tutulan hüquqları əhatə edirdi. Müəyyən sayda dövlət tərəfindən ratifikasiya edildikdən sonra hər iki pakt 1976-cı ildə qüvvəyə minmişdir (ABŞ MSHBP-ı 1992-ci ildə ratifikasiya etmişdir). İSMHBP 155 üzv dövlətdən iqtisadi, sosial və mədəni hüquqların fiziki şəxslərə verilməsi istiqamətində işlər görməsini tələb edir. O vaxtdan etibarən beynəlxalq səviyyədə bir çox digər müqavilələr də təklif edilmişdir. Onlar, ümumiyyətlə, insan hüquqları mexanizmləri kimi tanınırlar

Ən təsirli hərəkatlardan biri Mahatma Qandinin vətəni Hindistanı Böyük Britaniya hakimiyyətindən qurtarması olmuşdur. Uzun zamandır əzilən irqi və dini azlıqların hərəkatı, eləcə də, mülki hüquqlar hərəkatı dünyanın bir çox yerlərində öz məqsədlərinə nail oldu.Beynəlxalq Qırmızı Xaç Komitəsinin əsasının qoyulması, 1864-cü il Liber Məcəlləsi və 1864-cü ildə Cenevrə Konvensiyalarının birincisinin hazırlanması beynəlxalq humanitar hüququn formalaşmasına təkan verdi. Bütün bunların ardınca iki Dünya müharibəsi baş verdi. Millətlər Liqası 1919-cu ildə - Birinci Dünya müharibəsi başa çatdıqdan sonra Versal Sülh Müqaviləsi üzrə müzakirələr aparılarkən yaradılmışdır. Liqanın məqsədi silahsızlanma, kollektiv təhlükəsizlik vasitəsilə müharibənin qarşısının alınması, danışıqlar, diplomatiya və qlobal rifahın yaxşılaşdırılması vasitəsilə ölkələr arasındakı mübahisələrin həll olunması idi. Nizamnamədə də qeyd olunduğu kimi, liqaya hüquqların böyük bir qismini təşviq etmək tapşırılmışdı, hansı ki bu hüquqlar sonralar Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə daxil edilmişdir. Millətlər Liqasının üzərinə koloniyadan müstəqil dövlətə keçid dövründə Qərbi Avropanın müstəmləkəçi dövlətlərinin köhnə koloniyalarına dəstək verməsi üçün təşviq etmək öhdəliyi qoyulmuşdu.

1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin preambulası ÜİHB-nin bir hissəsi bütün qitələrdən və bütün əsas dinlərdən olan nümayəndələr də daxil olmaqla, insan hüquqları üzrə beynəlxalq ekspertlər komitəsi tərəfindən araşdırılmış, yazılmış və Mahatma Qandi kimi liderlərlə məsləhətləşmələr aparılmışdır. Həm mülki və siyasi hüquqların, həm də iqtisadi, sosial və mədəni hüquqların daxil edilməsi, əsas insan hüquqlarının bölünməz olduğu və qeyd edilən hüquqların bir-biri ilə sıx əlaqədar olduğu ehtimalına əsaslanırdı.

1966-cı ildə BMT tərəfindən Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (MSHBP) və İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (İSMHBP) qəbul edilmişdir: hər iki sənəd ÜİHB-də nəzərdə tutulan hüquqları əhatə edirdi. Müəyyən sayda dövlət tərəfindən ratifikasiya edildikdən sonra hər iki pakt 1976-cı ildə qüvvəyə minmişdir (ABŞ MSHBP-ı 1992-ci ildə ratifikasiya etmişdir). İSMHBP 155 üzv dövlətdən iqtisadi, sosial və mədəni hüquqların fiziki şəxslərə verilməsi istiqamətində işlər görməsini tələb edir. O vaxtdan etibarən beynəlxalq səviyyədə bir çox digər müqavilələr də təklif edilmişdir. Onlar, ümumiyyətlə, insan hüquqları mexanizmləri kimi tanınırlar. Ən əhəmiyyətliləri isə aşağıdakılardır: Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiya (1948-ci ildə qəbul edilmiş, 1951-ci ildə qüvvəyə minmişdir) İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (1966-cı ildə qəbul edilmiş, 1969-cu ildə qüvvəyə minmişdir) Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (1981-ci ildə qüvvəyə minmişdir). İşgəncə əleyhinə BMT Konvensiyası (1984-cü ildə qəbul edilmiş, 1984-cü ildə qüvvəyə minmişdir). Uşaq Hüquqları Konvensiyası (1989-cu ildə qəbul edilmiş, 1989-cu ildə qüvvəyə minmişdir). Bütün miqrant işçilərin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında BMT Konvensiyası (1990-cı ildə qəbul edilmişdir). Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutu (BCM) (2002-ci ildə qüvvəyə minmişdir). Birləşmiş Millətlər Təşkilatı (BMT) universal insan hüquqlarına dair normaların universal qəbul edilən beynəlxalq yurisdiksiyasına malik yeganə çoxtərəfli hökumət təşkilatıdır. BMT-nin bütün orqanları Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına və Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurasına məsləhətçi rolu var. BMT-nin insan haqları ilə bağlı ən yüksək vəzifəli orqanı İnsan Hüquqları üzrə Ali Komissarlıqdır. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 1-3-cü maddələrinə əsasən, Birləşmiş Millətlər Təşkilatının iqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həllində və irqindən, dilindən, cinsindən və dinindən asılı olmayaraq, insan hüquqları və fundamental azadlıqlara hörmətin təşviq edilməsində beynəlxalq əməkdaşlığa nail olmaq kimi beynəlxalq mandatı var. Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komissiyasını əvəz etmək üçün 2005-ci il Dünya Sammitində yaradılan Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası insan hüquqlarının pozulmasını araşdırmaq səlahiyyətinə malikdir. İnsan Hüquqları Şurası Baş Məclisin köməkçi orqanıdır və birbaşa ona hesabat verir. Qurum, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin şərh olunması ilə əlaqədar son səlahiyyətə malik olan Təhlükəsizlik Şurasından iyerarxiya baxımından aşağıdadır. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin gizli səsverməsi və sadə səs çoxluğu ilə seçilən şuraya yüz doqquzun bir üzvü dövlətdən 47-si daxildir. Şura Cenevrədədir və yığıncaqları ildə üç dəfə keçirilir; təcili vəziyyətlərdə isə əlavə yığıncaq keçirilir. Müstəqil ekspertlər (məruzəçilər) iddia edilən insan hüquqları pozuntularını araşdırır və Şuraya hesabat təqdim edir. İnsan Hüquqları Şurası, hətta iş Beynəlxalq Cinayət Məhkəməsinin yurisdiksiyasına daxil olmasa belə, Təhlükəsizlik Şurasından işə baxılması üçün Beynəlxalq Cinayət Məhkəməsinə müraciət etməsini xahiş edə bilər. Səlahiyyətləri birbaşa BMT Nizamnaməsindən irəli gələn siyasi qurumlardan əlavə, BMT əsas beynəlxalq insan hüquqları müqavilələrindən irəli gələn normalara və insan hüquqlarının standartlarına riayət olunmasını müşahidə edən müstəqil ekspertlərin komitələrindən ibarət olan bir sıra müqavilə əsaslı orqanlar da yaratmışdır. Həmin orqanlar müvafiq müqavilələr əsasında yaradılır və fəaliyyət göstərirlər.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# Əfv Sərəncamı Əli Kərimlini nədən qorxuya saldı?

*Adaşının azadlığa çıxması AXCP sədrini təlaşlandırıb*

**Ataların bir misalı var: "iki qoçun başı bir qazanda qaynamaz". Bu misalı hazırkı zamanda AXCP sədri Əli Kərimliyə və ölkə rəhbərinin Sərəncamı əsasında azadlığa buraxılan müxalifətçilərə şamil etmək mümkündür.**





Artıq Ə.Kərimlinin sosial şəbəkə vasitəsi ilə bu mövzuya aid edilən sərsəm statuslarından da aydın görünür ki, Sərəncamın verilməsini həyasızcasına "mitinq zəhmətinin nəticəsi" kimi təqdim etməsi, daha dəqiq desək, dövlət başçısının humanizm prinsipinə söykənən böyüklük addımını öz adına çıxarmaq cəhdləri, əslində, onun qorxaqlığının göstəricisidir. Çünki azadlığa çıxanlar arasında ona ciddi baryer olacaq insanlar kifayət qədərdir. Misal üçün, müavinləri Fuad Qəhrəmanlı və Gözəl Bayramlının azadlığa çıxmaları Əli Kərimlinin ovqatını təlx edib. Çünki müavinləri həbsdə olarkən, yəni F.Qəhrəmanlı və G.Bayramlı, məhz Ə.Kərimlinin günahları üzündən həbsə düşərkən, Ə.Kərimli, sadəcə, bir neçə bəyanat verib kənara çəkilməklə, öz işini bitmiş hesab elədi. Bu, onda köhnə şakərdir. Çünki daha əvvəllər də həbsə düşənlər sonradan AXCP sədri tərəfindən çıxdaş edilərək, bir kənara atılmışdılar.

### Artıq bir çoxları Ə.Kərimlinin çirkin niyyətlərinin, xəyanət və satqınçılıqlarının qurbanları olduğunu yaxşı anlamağa başlayıblar

Yeri gəlmişkən, bu günlərdə Prezident İlham Əliyevin Əfv Fərmanından yararlananlardan biri də "NİDA" hərəkatının fəallı Qiyas İbrahimovdur. Q.İbrahimov azadlığa qovuşan kimi onun həbsə düşməsində günahları olan radikal müxalifət liderlərini sərt şəkildə ittiham edib. "Bütün müxalifət liderləri diktatordurlar", deyən "NİDA"-çı fəal qeyd edib ki, bu Əfv Fərmanı ölkə rəhbərliyi tərəfindən başladılan siyasi islahatların başlanğıcıdır.

"Özümü heç vaxt liderlikdə görməmişəm və buna iddiam da yoxdur" deyə bildirən Q.İbrahimov müxalifət liderlərindən nə isə gözləməyin doğru olmadığını da bildirib.

Bu, həm də o deməkdir ki, artıq bir çoxları Ə.Kərimlinin çirkin niyyətlərinin, xəyanət və satqınçılıqlarının qurbanları olduğunu yaxşı anlamağa başlayıblar.

### Əli İnsanov həm Əli Kərimliyə, həm də dəstəkçilərinə meydan oxuyacaq

Bu arada, AXCP sədrini qorxuya salan amillərdən biri də sabiq səhiyyə naziri Əli İnsanovun azadlığa çıxmasıdır. Belə ki, Ə.İnsanov öz müsahibəsində deyib: "Görək mən onlara qoşulacam, ya onlar mənə?" Bu ifadədən belə anlaşılır ki, həqiqətən də, Əlilərin başı bir qazanda qaynamaz. Artıq kifayət qədər nəticə çıxarmaq olar ki, radikal müxalifətin daxilində kəskin çaxnaşmalar başlayacaq. Yəni görünən budur ki, Ə.Kərimlinin rəqibləri get-gedə artır. Qarşıdurmalar, ziddiyyətlər, liderlik savaşları artacaq və bu da dağıdıcı düşərgənin tamamilə məhvinə səbəb olacaq. Çünki Ə.İnsanovun ifadələri, bilavasitə özünü "lider" hesab edən Ə.Kərimliyə yönəlib və AXCP sədri təlaş keçirməyə başlayıb. O, yaxşı bilir ki, azadlığa çıxan adaşı heç vaxt "Milli Şura"ya üzv olmayacaq və onun rəhbərliyi altında fəaliyyət göstərməyəcək. Həmçinin, alternativ birliyin də yaradılması mümkündür ki, Ə.İnsanov həmin birliyin başına keçib, həm Ə.Kərimliyə, həm də ona dəstək verənlərə meydan oxuyacaq. Nəticədə, olanlar-olacaq və radikal düşərgəyə, necə deyərlər, bomba düşəcək. Hər halda, hadisələrin, məhz bu istiqamətdə cərəyan edəcəyini bəribaşdan proqnozlaşdırmaq mümkündür.

**Rövşən RƏSULOV**

# ABŞ Dövlət Departamentinin hesabatı: ikili standartın növbəti nümunəsi

***Ədalətli olan güclüdür. Məhz bu gün Azərbaycan güclü olduğu üçün həmişə ədalətli siyasət aparır. Məhz bu gün ABŞ Dövlət Departamenti ənənəvi illik hesabatında Azərbaycanla bağlı həqiqətə uyğun olmayan fikirlərə yer verməsi bir daha ikili standartın növbəti nümunəsini nümayiş etdirdiyini bir daha sübut edir. Və bununla həmin qurum özünə olan inamı daha da azaldıb.***




### Növbəti qərəzli qiymətləndirmə

ABŞ Dövlət Departamentinin 2018-ci ildə dünya ölkələrində insan haqlarına və fundamental azadlıqlara dair hesabatında Azərbaycan haqqında yer alan məqamlar yenə də heç bir fakta əsaslanmır. İllərdir, özünü göstərən ikili standartın mövcudluğu yenə də hiss edilir. Azərbaycana tutulan iradların əsassızlığı açıq görünür. İnsan haqları, söz azadlığı, "siyasi məhbus", KİV-in fəaliyyətinin məhdudlaşdırılması, insanların sərbəst toplaşmalarına maneələrin törədilməsi və digər punktlarda ifadə edilən fikirlər həqiqəti yox, müəyyən dairələrin maraqlarını əks etdirir.

Əslində, bu məsələ yeni deyil. Qərbin Azərbaycandakı sosial-siyasi vəziyyətə münasibətində, mütəmadi olaraq, sünilik və qərəz müşahidə edilib. İndi ABŞ Dövlət Departamenti söz azadlığının məhdudlaşdırıldığından və insan haqlarının pozulduğundan dəm vurur. O, nəyi nəzərdə tutur? Müsəlman dövlətlərində insanlar özbaşınalıq edə bilərlərsə, qarşıları kəsilməli deyilmi? Cəmiyyəti dağıtmağa çalışarlarsa, haqlıdırlarmı? Belə olan halda, Avropa ölkələrində baş verənləri necə adlandırmaq olar? Necə olur ki, Amerika ordusunda indiyə qədər neçə zabit əsgərə qarşı zorakılıq edilir, ancaq bu günə kimi bir kimsəni nə tuturlar, nə də cəzalandırırlar.

Artıq 25 ildən çoxdur ki, Azərbaycanda "siyasi məhbus" məsələsini şişirtməklə məşğul olan qruplar var. İlk öncə, anlamaq olmur ki, bu termin nəyi ifadə edir.

Sözsüz ki, bu gün Azərbaycan sürətlə inkişaf edən müsəlman dövlətidir. Burada daxili sabitlik və davamlı inkişaf, neçə illərdir ki, özünü göstərir. Qərbin inkişaf etmiş ölkələrində isə böhran getdikcə daha da dərinləşir. Məhz bu səbəbdən də, Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirilir.

Belə olan halda, dünyanın heç bir dövləti Azərbaycana nəyisə diktə edə bilmir və edə də bilməz. Çünki Azərbaycan müstəqil dövlətdir və heç bir dövlətə də tabe deyil. Onlar əmrləri itaətlə yerinə yetirən rejimləri "sevirlər". Ermənistan tamamilə kənar qüvvələrin əlində oyuncağa çevrilən ölkədir. Məhz bütün deyilənlərə əsasən, Azərbaycanla bağlı ABŞ Dövlət Departamentinin hesabatında qeyd olunanlar ciddi qəbul edilə bilməz.

### İttiham edən ABŞ dövlətinin daxili qurumudur

Politoloq Qabil Hüseynli bildirir ki, ABŞ Dövlət Departamenti yaxşı olardı ki, suveren və müstəqil dövlətin daxili işlərinə qarışmaqdansa, qurumun adına bir daha diqqət yetirsin: "Bizcə, orada belə yazılıb - ABŞ Dövlət (!) Departamenti... Demək, Azərbaycana qarşı qərəzli mövqe bildirən qurum ABŞ adlı bir dövlətin departamentidir və ölkədə cərəyan edən polis zorakılıqları, insan haqlarının pozulması, dini, irqi ayrı-seçkilik, ksenofobiya, həbsxanalarda baş verən zorakılıqlara, siyasi təqiblərə münasibət bildirməlidir, Azərbaycanda baş verən proseslərə yox! Əgər buna son qoyulmasa, ABŞ Dövlət Departamentinin özü beynəlxalq aləmdə çətin vəziyyətə düşərək, başqa ölkələrin ittihamlarına məruz qala bilər".

Beləliklə, bütün bunların fonunda isə, ABŞ Dövlət Departamentinin belə hesabatlar hazırlaması reallıqda bu qurumun özünü nüfuzdan salır, ona olan etibarı kəskin surətdə azaldır. Bu halda, ABŞ Dövlət Departamentinin bu qərəzliliyinə bir ad vermək olar - HƏYASIZLIQ!

**R.HÜSEY!NOVA**

# "Azərbaycanda 2020-ci ilə qədər tütündən istifadənin 10 faiz azaldılması planlaşdırılır"




Martın 18-də Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzində (İSİM) Azərbaycanda tütünlə mübarizə sahəsində dövlət-özəl sektor tərəfdaşlığının əhəmiyyətinə həsr olunmuş dəyirmi masa keçirilib.

İSİM-dən AZƏRTAC-a bildiriblər ki, mərkəzin direktoru Qəhrəman Haqverdiyev çıxış edərək tədbirin əsas məqsədinin ictimaiyyətin diqqətini tütünün yaratdığı təhlükəli fəsadlara yönəltmək və bu istiqamətdə maarifləndirməni, əməkdaşlığı daha da genişləndirmək olduğunu deyib: "Hazırda əsas məqsədimiz budur ki, Azərbaycanda 2020-ci ilə qədər tütündən istifadənin 10 faiz azaldılmasına nail olaq. Unutmayaq ki, əhalinin sağlamlığının qorunmasına təsir edən əsas faktorlardan cəmi 10 faizi tibbin üzərinə düşürsə, qalan 50 faizi həyat tərzi, 20 faizi irsi amillər, 20 faizi isə ətraf mühitin göstərdiyi təsirlərdir. Bu baxımdan, ictimai səhiyyə, yeni profilaktika tədbirləri və maarifləndirmə işləri əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayır". İSİM-in İctimai səhiyyə şöbəsinin müdiri Tofiq Musayev ölkəmizdə "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunun tətbiqinin gündəlik həyatımızda artıq özünü göstərdiyini, ictimai yerlərdə tüstüsüz mühitin yaradılması üçün müəyyən qadağalar və inzibati cəzalar həyata keçirildiyini deyib.

# NASA-dan xəbərdarlıq: İri asteroid Yerə yaxınlaşır!



ABŞ-ın Milli Aeronavtika və Kosmik Tədqiqatlar Agentliyi (NASA) iri asteroidin Yerə yaxınlaşması barədə xəbərdarlıq edib. Agentliyin saytında yer alan xəbərdə deyilir ki, EA2 asteroidi Yer kürəsinin yaxınlığından 305 min kilometr məsafədən keçəcək. Bu, planetimizdən Aya qədər olan məsafədən 80 min kilometr azdır. NASA-nın məlumatında diqqətə çatdırılır ki, göy cisminin Yer kürəsinə ən yaxın məsafədən uçması martın 22-də baş verəcək. Onun sürəti saniyədə 5 kilometrə yaxın, diametri isə 18-dən 40 metrə qədərdir. Agentliyin mütəxəssisləri ötən ilin sentyabrında 70-160 metr radiusu olan asteroidin Yer kürəsinə yaxınlaşdığını bildirmişdilər. Həmin göy cismi planetimizdən 5,87 milyon kilometr məsafədən keçmişdi.

# Gürcüstan parlamentində deputatlar əlbəyaxa olublar



Gürcüstan parlamentinin hüquq məsələləri komitəsinin dünənki iclasında deputatlar arasında dava olub. AZƏRTAC xəbər verir ki, komitə iclasında hakimlərin seçilməsi ilə bağlı məsələ müzakirə olunub. Prosedur qaydaların müzakirəsi zamanı "Avropa Gürcüstanı" partiyasından olan deputat Otar Kaxidze ilə parlament çoxluğunun üzvü İrakli Bereya arasında qarşıdurma yaranıb. Əlbəyaxa olan deputatları təhlükəsizlik xidmətini əməkdaşları sakitləşdiriblər.

# Dini tolerantlıq və dini icmaların hüquq bərabərliyi

***Azərbaycan xalqının Ümummilli Lideri, bütün dünyada tanınmış siyasətçi Heydər Əliyev respublikamızda insan hüquq və azadlıqlarının təmin edilməsində, xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında, dinlərarası dialoqun inkişafında və dini tolerantlıq ənənələrinin qorunmasında böyük rol oynamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi vaxtda respublikamızda dini etiqad azadlığı tam təmin edilmiş, milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişmiş, dini ayin və mərasimləri yerinə yetirmək üçün bütün dinlərə mənsub olan insanlara bərabər şərait yaradılmışdır.***

Ulu Öndər respublikamızda yaşayan bütün xalqlara, bütün millətlərə dilindən, dinindən və siyasi mənsubiyyətindən asılı olmayaraq, başqa dinin nümayəndələrinə qarşı olan münasibəti aşağıdakı şəkildə bəyan etmişdir: “Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, azadlıq və hürriyyət imkanları verir”.

Ulu Öndər başqa dinlərə qarşı dözümlülük və tolerantlıq münasibətini həmişə öz fəaliyyəti və öz əməli ilə sübut etmişdir. Ümummilli Lider Heydər Əliyev Azərbaycanda yaşayan dini icmalara qarşı həmişə hörmət və ehtiramla yanaşmış, onların dini bayramlarını təbrik etmiş, adət-ənənələrini qayğı ilə yaranmışdır. Məsələn, İsa Peyğəmbərin Mövlud bayramı münasibəti ilə Azərbaycandakı pravoslav icmasını təbrik edən Ulu Öndər Heydər Əliyev demişdir: “Sizi İsa Peyğəmbərin Mövlud bayramı münasibətilə təbrik edirəm. Dünyanın bütün pravoslav xristianları üçün bu işıqlı gündə sizlərə can sağlığı, səadət diləyirəm. Arzu edirəm ki, sizin bütün nəcib niyyətləriniz yerinə yetsin, bütün diləkləriniz başa gəlsin. İnanıram ki, Azərbaycandakı pravoslav icmasının firavanlığı vətənimizin tərəqqisi və çiçəklənməsi, bütün vətəndaşlarımızın xoşbəxt gələcəyi üçün etibarlı zəmin olacaqdır”.

Buradan göründüyü kimi, İsa Peyğəmbərin Mövlud bayramı münasibətilə pravoslav xristianlarının Heydər Əliyev tərəfindən təbrik edilməsi Ulu Öndəri ölkəmizdə yaşayan başqa dinin nümayəndələrinə olan ehtiram və qayğısının ifadəsi və ölkəmizdə dini tolerantlığın mövcud olduğunu göstərən faktdır.

Tarixən Azərbaycanda islam dini ilə yanaşı xristianlıq və yəhudi dinlərinə mənsub olan insanlar həmişə əmin-amanlıq şəraitində yaşamış və bir-birinin dini əqidəsinə ehtiramla yanaşmışlar.

Azərbaycanda müxtəlif dinlərin birgə yaşayış şəraitinin nümunəvi xarakter daşıdığını vurğulayan Ulu Öndər bu xüsusiyyətlərin xalqımızın dini dözümlülüyünü göstərən əsas şərt hesab etmişdir. Buna misal olaraq, göstərmək lazımdır ki, Ulu Öndər Heydər Əliyev 1998-ci il mayın 13-də prezident sarayında ölkənin din xadimləri ilə görüşündə söylədiyi nitq zamanı müxtəlif dinlərin birliyini vurğulamış və Azərbaycandakı dini tolerantlığı aşağıdakı kimi şərh etmişdir: “Azərbaycanda müxtəlif dinlərin bu cür birliyinin olması müstəsna dərəcədə nümunəvi xarakter daşıyır. Bu, əslində, Azərbaycanın reallığını, eyni zamanda, Azərbaycan xalqının dini dözümlülüyünü göstərir. Azərbaycanda əhalinin əksəriyyətini islam dininə etiqad edən azərbaycanlılar təşkil edir. Ancaq eyni zamanda, Azərbaycanda xristian-pravoslav, yəhudi dininə etiqad edən insanlar və müxtəlif millətlərin nümayəndələri də yaşayırlar. Azərbaycanlılar başqa dinlərə münasibətdə həmişə dözümlü olublar və bunu bizə Quran, Həzrəti-Məhəmməd vəsiyyət edibdir. Amma ən mühüm odur ki, bu xeyirxah, müqəddəs vəsiyyət yerinə yetirilsin. Azərbaycanlıların bu vəsiyyəti müqəddəs tutması xalqımızın çox mühüm keyfiyyəti, xüsusiyyətidir və biz bununla fəxr edə bilərik”.

Ulu Öndər Heydər Əliyev iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə tolerantlıqla bağlı fikirlərini bildirmiş, xüsusən, indiki qloballaşma dövründə dinlərarası və mədəniyyətlərarası dialoqa həmişə üstünlük vermişdir. Qeyd edək ki, 10-11 oktyabr 2002-ci il tarixində Bakıda “Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizmə və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması” mövzusunda beynəlxalq konfrans keçirilmişdir. Azərbaycan hökumətinin ATƏT-lə birgə keçirdiyi bu konfransda terrorizmə və ekstremizmə qarşı mübarizədə dinin və əqidənin rolu haqqında məsələlər, habelə Böyük İpək Yolu məkanında dinlərarası və mədəniyyətlərarası dialoqun əhəmiyyəti və s. məsələlər müzakirə edilmişdir. Konfransda çıxış edən Ulu Öndər Heydər Əliyev münaqişələrin aradan qaldırılmasında dinlərarası dialoqun rolundan bəhs edərək demişdir: “Qloballaşan dünyada hamımız bir-birimizə daha yaxın olmuşuq. Xalqlararası, mədəniyyətlərarası, dinlərarası dialoqun bu gün dərin məna kəsb etməsi də, məhz bununla bağlıdır. Bu dialoqu inkişaf etdirərək, bu dialoqa dəstək verərək, biz müəyyən mənada, terrorizmin formalaşmasına xidmət edən bütün qaynaqları araşdırıb, onu kökündən məhv etməyə can atmalıyıq”.

Buradan göründüyü kimi, qloballaşan dünyamızda dinlərarası dialoqun mühüm əhəmiyyət kəsb etməsini şərh edən Ulu Öndər terrorizmə qarşı mübarizə aparılmasında, münaqişələrin aradan qaldırılmasında bu dialoqun roluna yüksək qiymət vermişdir. Hazırda dünyada terrorçuluqla bağlı baş verən hadisələr, regional dini münaqişələr Heydər Əliyevin uzaqgörən siyasətçi olduğunu bir daha sübut etmişdir.

Ümummilli Lider Heydər Əliyev müsəlman ölkələri arasında həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə həmişə önəm verirdi. Xüsusən, Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi, Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə həll edilməsində müsəlman ölkələrinin, o cümlədən, İslam Konfransı Təşkilatının səylərini artırmasını diqqətə çəkirdi. Ulu Öndər işğalçı Ermənistanın bəzi ölkələrdən dəstək aldığını qeyd edərək, 1997-ci il 10 dekabrda İslam Konfransı Təşkilatının üzvü olan ölklərin rəhbərlərinin VIII zirvə görüşündəki nitqində bu məsələdən bəhs edərək demişdir: “İşğalçı Ermənistan öz diasporlarının köməyi ilə həm Amerikadan, həm Avropadan, ələlxüsus, Rusiyadan mənəvi, siyasi, iqtisadi və hərbi dəstək alır. 1993-1996-cı illərə Rusiya Ermənistana qeyri-qanuni, gizli bir milyard dəyərində silah-sursat və hərbi texnika göndəribdir. Bundan əlavə, bu il avqust ayının 29-da Rusiya ilə Ermənistan arasında güclü hərbi əməkdaşlıq bəndləri olan müqavilə bağlanmışdır”.

Heydər Əliyev Ermənistan kimi təcavüzkar ölkələrə qarşı mübarizə aparmaq, müsəlman ölkələrində təhlükəsizliyin bərqərar edilməsi, müsəlman icmalarının hüquqlarının qorunması naminə İslam Konfransı Təşkilatına üzv ölkələri birliyə və əməkdaşlığa çağıraraq, öz nitqində demişdir: “Ermənistan Respublikasının təcavüzünə məruz qalmış Azərbaycan xalqı bütün müsəlman xalqları kimi Əfqanıstanda, Somalidə, Bosniya-Hersoqovinyada, haşqa dövlətlərdə mövcud olan vəziyyətdən olduqca narahatdır. Müsəlman xalqlarının təhlükəsizliyini və ölkələrimizin ərazi bütövlüyünü təmin etmək, müsəlman icmalarının hüquqlarını qorumaq, müsəlman aləminin sabit inkişafını təmin etmək bizim müqəddəs vəzifəmizdir. Böyük nüfuza malik olan İslam Konfransı Təşkilatı səylərimizi birləşdirməyə və əlaqələndirməyə hər cür imkanlar yaratmalıdır. Əminəm ki, bizim bu zirvə görüşümüz bunu üçün öz töhfəsini verəcəkdir”.

Dini dözümlülüyü, tolerantlığı daima dəstəkləyən Ulu Öndər Heydər Əliyev gənclərimizin bu ruhda tərbiyə olunmasını həmişə tövsiyə edirdi. Yeniyetmə və gənclərimizin başqa dinlərə qarşı dözümlülük ruhunda tərbiyə edilməsinin vacib məsələ olduğunu vurğulayan Heydər Əliyev, eyni zamanda, bu işin mürəkkəb və çətin olduğunu da qeyd edirdi. Ulu Öndər gənclərdə tolerantlıq mədəniyyətinin uşaqlıqdan tərbiyə edilməsini diqqətə çəkərək, ünsiyyət mədəniyyətinin formalaşdırılması və Azərbaycan gənclərində bu xüsusiyyətlərin tərbiyə edilməsinin vacib şərt olduğunu bizlərə tövsiyə etmişdir.

Respublikada dini əmin-amanlığın və sabitliyin yaranmasında Heydər Əliyevin mühüm rol oynadığını vurğulayan Moskva və Ümumrusiya sabiq Patriarxı mərhum II Aleksi Azərbaycanın bu sahədə nümunə olması ilə bağlı öz fikirlərini aşağıdakı kimi şərh edərək demişdir: “Azərbaycan qədim dini ənənələrə və mədəniyyətə malik bir ölkədir. Bu gün Azərbaycan dini əmin-amanlığa və sabitliyə ilham verən örnəkdir. Bunun əsası Azərbaycan Prezidenti Heydər Əliyevin müdrik siyasəti sayəsində qoyulmuşdur. Dünyəvi hakimiyyət və ənənəvi dini icmaların konstruktiv fəaliyyəti və qarşılıqlı ünsiyyəti nəticəsində yaranmış dövlət din münasibətlərinin nadir modeli Azərbaycan Respublikasında öz əksini tapmışdır. Belə zənn edirəm ki, bu sahədə Azərbaycanda toplanmış təcrübə diqqətlə öyrənilməli və təhlil olunmalıdır”.

Buradan göründüyü kimi, dövlət-din siyasətinin formalaşmasında Azərbaycan modelini nümunə kimi göstərən II Aleksi bu siyasətin yaradılmasında Heydər Əliyevin rolunu önə çəkmiş və bu sahədə Azərbaycanda toplanmış təcrübənin öyrənilməsini tövsiyə etmişdir.

Xalqımızın dini cəhətdən tolerant olduğunu respublikamıza səfərə gələn tanınmış dünya dini liderləri də təsdiq edirlər. Qeyd edək ki, 2010-cu ilin 26-27 aprel tarixində Bakıda keçirilən Dünya dini liderlərinin sammitində iştirak edən qonaqlar da bunun şahidi olmuşlar. Sammitdə iştirak etmək üçün Bakıya gələn Moskva və bütün Rusiyanın Patriarxı Kirili Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşərkən ona müraciət edərək, Azərbaycanda dinlərarası münasibətlərin yaxşı olduğunu və bu işdə İlham Əliyevin rolunu xüsusi vurğulayaraq demişdir: “Mən dinlərarası münasibətlərdə sizin rolunuzu xüsusi vurğulamaq istərdim. Azərbaycan dövlətində insanların əksəriyyəti islam dininə etiqad edir. Lakin burada pravoslav və yəhudi icmaları da ənənəvi olaraq mövcuddur.

Azərbaycanda dini tolerantlıq mədəniyyəti və başqa millətlərə qarşı milli dözümlülük tarixən çox yüksək səviyyədə olmuşdur. Qeyd edək ki, müstəqillik dövründə Ulu Öndər Heydər Əliyev başqa dinə mənsub olan insanların öz dini mərasimlərinin keçirilməsinə qayğı ilə yarnmışdır. Məsələn, xristianların milad və pasxa bayramının keçirilməsini Ulu Öndər dövlət səviyyəsində dəstəkləmişdir. Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyasının yepiskopu Aleksandr İşein Heydər Əliyevin pravoslavlara qarşı göstərdiyi bu qayğıdan bəhs edərək demişdir: “Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda həyatın stabilləşməsinə doğru istiqamət formalaşdı. O, stabilliyin möhkəmlənməsi işində tolerandığı strateji cəhətdən mühüm istiqamətlərdən birinə çevirdi. 1994-95-ci illərdə Heydər Əliyev bizə öz mərasimlərimizi kilsələrimizdən xaricdə daha geniş şəkildə keçirməyimiz təklifi ilə müraciət etdi. O vaxt bizə çox qəribə görünürdü, çünki iqtisadi və siyasi böhran dövründə belə mərasimlərin keçirilməsi bizim üçün çox çətin idi. Lakin Heydər Əliyevin yardımı ilə biz bu tədbirləri keçirdik. Get-gedə bu tədbirlər bizdə ənənəvi hal aldı və hər il keçirilməkdədir. Milad və Pasxa bayramları rəhbər dairələrin dəstəyi ilə, artıq Azərbaycanda geniş şəkildə keçirilir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs



## “Nar” nömrə ilə xaricdə “WhatsApp” pulsuzdur”

“Nar” Novruz bayramı ilə əlaqədar xaricə səyahət edəcək abunəçiləri üçün sərfəli rominq paketləri təqdim etməkdədir. Mobil operatorun istifadəçiləri “Nar” rominq ilə internet, “WhatsApp” vasitəsilə pulsuz yazışma və səsli zəng əldə edirlər. Bütün abunəçilərini nəzərə olan “Nar” 4 müxtəlif rominq paketi təqdim edir. “Roaming 9” paketi 500 MB internet, “Roaming 15” paketi 500 MB internet və 50 dəqiqə səsli zəng, “Roaming 18” paketi 1 GB internet, “Roaming 28” paketi isə 1 GB internet və 100 dəqiqə səsli zəng xidməti təklif edir. “Roaming 18” və “Roaming 28” paketlərində “WhatsApp” vasitəsilə yazılı mesajlar pulsuzdur. “Roaming 9”, “Roaming 15” paketlərinin istifadə müddəti 5, “Roaming 18” və “Roaming 28” paketlərinin istifadə müddəti isə 15 gündür.




Qeyd edək ki, “Nar”-ın təqdim etdiyi rominq paketlərinin sərfəli olması, istifadəçilərin sayını artırmaqdadır. Son 1 il ərzində “Nar”-ın rominq istifadəçilərinin sayı 174% artıb.

Rominq paketləri haqqında daha ətraflı məlumatı nar.az saytından və ya 777 nömrəsinə “R” göndərməklə əldə etmək olar. “Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Fransız bəstəkarı Filip Kirkorova qarşı yenidən iddia qaldırıb



Fransız bəstəkarı və ifaçısı Didye Maruani Rusiyanın Xalq artisti Filip Kirkorova qarşı yenidən iddia irəli sürüb. AZƏRTAC xəbər verir ki, fransız bəstəkarı “Qəddar sevgi” (“Jestokaya lyubov”) mahnısına görə müəllif hüquqlarının müdafiəsi üçün F.Kirkorov və bəstəkar Oleq Popkova qarşı 272 milyon rubl məbləğində iddia irəli sürüb.

İddiada deyilir ki, bəstəkar O.Popkov və ifaçı F.Kirkorov Didye Maruaninin “Symphonic Space Dream” mahnısının musiqisindən istifadə ediblər. İddia Moskva məhkəməsinə təqdim olunub. Fransız bəstəkarı 2016-cı ildə də Kirkorova qarşı bu iddia ilə çıxış etmişdi. Lakin o zaman mahnıların musiqisində oxşarlığı sübut etmək mümkün olmamışdı.

## Keçmiş məhkumun evindən 1,5 kiloqrama yaxın narkotik maddə tapılıb

Masallıda keçmiş məhkumdan narkotik maddələr götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Masallı Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında, əvvəllər məhkum olunmuş V.Yusifovun şəhər ərazisindəki yaşadığı evdə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oradan çəkisi 1,5 kiloqrama yaxın tiryək, həmçinin heroin, metadon, metamfetamin və bir süngü bıçaq aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

## Elan

Texniki İnventarlaşma İdarəsi tərəfindən Kamilova Südabə Atababa qızına verilmiş çıxarış (Yasamal rayonu, İnşaatçılar prospekti ev 28, mənzil 17) itdiyi üçün etibarsız sayılır.

## Lionel Messi yeni rekorda imza atıb



İspaniyanın “Barselona” futbol klubunun argentinalı hücumçusu Lionel Messi yeni rekorda imza atıb. Xarici KİV-lərin yazdığına görə, 31 yaşlı argentinalı hücumçu martın 18-də “Barselona”nın “Real Betis”lə oyununda 477-ci qələbəsini qazanıb. Bu qələbə ilə Lionel Messi Xavi Hernandezi qabaqlayıb. Hernandezin aktivində 476 qələbə var. “Barselona”da bu göstəriciyə görə üçüncü yerdə isə sabiq yarımmüdafiəçi Andres İniesta (459) yer alıb.

“Betis”lə oyunu Lionel Messinin Kataloniya klubundakı 674-cü qarşılaşması olub. Bu nəticə ilə o Andreas İniestaya çatıb. “Barselona”da ən çox oyun keçirən futbolçu isə Xavi Hernandezdir (767).

Messi 2004-cü ildən “Barselona”nın heyətində forma geyinir. Argentinalı hücumçu İspaniya çempionatının 9, İspan Super Kubokunun 8, İspaniya kubokunun 6, Çempionlar Liqasının 4, UEFA Super Kubokunun və dünya klublar çempionatının 3 dəfə qalibi olub. Qeyd edək ki, Lionel Messi cari mövsümdə İspaniya çempionatında 26 oyun keçirib və 29 qol vurub

## Suarez 3 həftə yaşıl meydanlardan uzaq qalacaq



İspaniyanın “Barselona” futbol klubunun hücumçusu Luis Suarez üç həftə yaşıl meydanlardan kənarda qalacaq. Klubun saytında yer alan məlumata görə, 32 yaşlı uruqvaylı hücumçu martın 17-də “Betis”lə oyunda dizindən zədələnib. Bu səbəbdən uruqvaylı hücumçunun ən azı 15 gün yaşıl meydanlardan uzaq qalacağı bildirilib.

Qeyd edək ki, Suarez cari mövsümdə Kataloniya komandasının heyətində keçirdiyi 39 oyunda 21 qol vurub və 6 məhsuldar ötürmə edib.

## Azərbaycanın 7 şahmatçısı Avropa çempionatında mübarizə aparır



Martın 18-də Şimali Makedoniyanın paytaxtı Skopyedə kişi şahmatçılar arasında Avropa çempionatı start götürüb. AZƏRTAC xəbər verir ki, 42 ölkədən şahmatçıların mübarizə apardıqları turnirdə Azərbaycanı 7 idmançı təmsil edir. Birinci turda şahmatçılarımız Rauf Məmmədov litvalı Paulis Pultineviç, Eltac Səfərli polşalı Petr Piesik, Məhəmməd Muradlı Belarus təmsilçisi Vladislav Kovalyok, Kənan Qarayev Daniele Vokaturo, Ülvi Sadıqov Kosovo təmsilçisi Muhamet Aslani, Cahandar Azadəliyev Polşa təmsilçisi İqor Yanik ilə mübarizə aparır. On bir turdan ibarət qitə çempionatı İsveçrə sistemi üzrə keçirilir.

## “Porto” Kasilyasla müqaviləni yeniləyəcək

Portuqaliyanın “Porto” futbol klubu qapıçısı İlker Kasilyasla müqaviləni uzatmağa hazırlaşır. Xarici KİV-lərin yazdığına görə, 37 yaşlı ispaniyalı qapıçı ilə yeni müqavilə 2020-ci ilin yayınadək nəzərdə tutulub. Qeyd edək ki, Kasilyas 2015-ci ildən Portuqaliya klubunda çıxış edir. İspaniyalı qapıçının hazırkı müqaviləsi bu ilin yayında başa çatır. O, cari mövsümdə “Porto”nun heyətində 35 oyun keçirib.

## Xorvatiya-Azərbaycan oyununu bolqarıstanlı hakimlər briqadası idarə edəcək




Futbol üzrə “Avro-2020”nin seçmə mərhələsi çərçivəsində keçiriləcək Xorvatiya-Azərbaycan oyununun hakimləri müəyyənləşib. Görüşü bolqarıstanlı hakimlər briqadası idarə edəcək. Matçın baş hakimi Georgi Kabakov olacaq. Ona Martin Marqaritov və Divan Valkov yan xətt hakimləri, Nikola Popov dördüncü hakim qismində kömək edəcək. Qeyd edək ki, Xorvatiya-Azərbaycan qarşılaşması martın 21-də Zaqrebdəki “Maksimir” stadionunda keçiriləcək. Oyun Bakı vaxtı ilə saat 23:45-də başlayacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**